20_27 IYUl-QARA.qxd 6/20/2024 11:20 PM Page 1


# UNİKAL

№21 (2203) 21 iyun 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




# Azərbaycan parlamenti buraxılır:

## Növbədənkənar seçkilər gündəmdə



Səh.3

## Mədəniyyət Nazirliyində yenə şübhəli tenderlər

*2020-ci ildə Əbülfəs Qarayevin müavini də daxil olmaqla, bəzi yüksəkvəzifəli şəxslər həmin adamlara qarşı irəli sürülən ittihamların əsas hissəsi Mədəniyyət Nazirliyinin keçirdiyi dövlət satınalmaları və tenderlərdə yol verilmiş saxtakarlıq, yeyinti faktları ilə əlaqədar idi. Buna görə nazirlik rəsmilərilə yanaşı saxta tenderlərin qalibi olan şirkət rəhbərləri də məsuliyyətə cəlb olundular. Həmin fırıldaqlarda və dövlət mülkiyyətinin talan olunmasında iştirak edənlərin bir qismi həbsə göndərildi, bir qismi də, nazir başda olmaqla, vəzifəsindən azad olundu. İstintaqda ifadə verənlər isə bu işdə nazirin birbaşa əli olduğunu sübut edən məlumatlar veriblər... Bu qalmaqalların ardınca Əbülfəs Qarayev ötən ilin mayında vəzifəsindən azad olundu.*

Səh.8

## “Ermənistanın istənilən təxribatına qarşı yenə cavab verəcək “dəmir yumruğ”umuz var”



*Milli Məclisin deputatı Aydın Mirzəzadə ”Unikal”a müsahibə verib. O, Fransanın Ermənistanı silahlandırmasından, Ermənistan yeni müharibəyə cəhd edərsə onları nələrin gözləyəcəyindən, Fransanın bu addımının sülh gündəliyinə necə təsir edəcəyindən və Azərbaycan Ordusu üçün hansı yeni silahların alına biləcəyindən danışıb.*

Səh.4

## Prezident və məmurların adından saxta müraciət yayanlar həbs edildi




*Dövlət və ictimai xadimlərin adından saxta müraciətlər hazırlayan kibercinayətkar şəbəkə ifşa olunub. Bu barədə ”Unikal”a Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən məlumat verilib. Qeyd olunub ki, kibercinayət yolu ilə Azərbaycan Prezidentinin, digər dövlət və ictimai xadimlərin adından süni intellekt proqramları - “deepfake” texnologiyaları vasitəsilə saxta...*

Səh.2

## Fransa Ermənistanı savaşa sürükləyir: Revanşizmi körükləyən siyasət nəyə hesablanıb?



*Son günlərdə Fransanın Ermənistanı silahlandırması barədə məsələlər yenidən gündəmə gəlib. Belə ki, Fransa ilə Ermənistan arasında “Caesar” özüyeriyən artilleriya qurğularının alqı-satqısı barədə müqavilə imzalanıb. Qeyd edək ki, Ermənistanın müdafiə naziri Suren Papikyan...*

Səh.9

20_27 IYUI-QARA.qxd 6/20/2024 11:21 PM Page 2



# "60 yaşımda belə geyinsəm, deyərəm ki, ayıbdır" - Aynur Dadaşova



***"Geyim, tərbiyə, əxlaq yaşa baxmır. Geyimlə tərbiyə ölçülmür. Qapalı geyinib amma qadına yaraşmayan elə bir hərəkət edə bilər ki... İnsanın xasiyyəti geyimə bağlı bir şey deyil".***

"Unikal" bizim.media-ya istinadən bildirir ki, bu sözləri müğənni Aynur Dadaşova qonaq olduğu "Rəngarəng səhər" verilişində deyib.

Sənətçi onun edirə geyindiyi qısa libasını tənqid edənlərə efirdən kinayə ilə ismarış yollayıb: "Mən 60 yaşımda belə geyinsəm, deyərəm ki, ayıbdır. Amma indi mənim nə yaşım. Mən 11 yaşımdan efirdəyəm. 20 yaşlı oğlum və 12 yaşında qızım var. Həmkarlarım hər zaman söyləyirlər ki, biz özümüzə görə yaşamırıq. Biz kiməsə görə yaşayırıq. Mənim bu geyimimə xoşaqəlməz rəylər yazsalar yalnız məni qısqanan xanımlar yaza bilər. Mən darıxa bilərəm, amma depressiyaya düşən xanım deyiləm".

# "Dərmandan şoka düşdüm, sonra..." - əməkdar artist

***Əməkdar artist İlkin Əhmədov kosmetoloji prosedur zamanı problem yaşayıb.***

"Unikal" xəbər verir ki, bu barədə o, verilişlərin birində danışıb. Sənətçi qeyd edib ki, səhnədə olan bəylərin kosmetoloji prosedurlara üz tutmasına normal yanaşır: "Səhnədə olan kişilərin yüngül kosmetoloji prosedurlara müraciət etməsinə münasibətim normaldır. Bir insan mütəmadi olaraq sevənlərinin qarşısına çıxırsa, pərəstişkarları da onu gözəl görmək istəyir. Dərin bir çapıq varsa, müasir dövrdə bunu aparmaq mümkündürsə, niyə də olmasın? Saç tökülməsinə görə həkimə getdim və mezoterapiya etdirdim, dərmandan şoka düşdüm. Antibiotikə allergiyam var idi. Sonra məni ayıltdılar. Həkimlər də qorxmuşdular. Onlar da məndən soruşanda demişdim ki, heç bir problem yoxdur. Günah məndə oldu".



# "Qızım Amerikada ailə həyatı qurub" - Ağamirzə

***Meyxanaçı Ağamirzə Məmmədov "Qonaqcanlı" verilişinin qonağı olub.***

"Unikal" xəbər verir ki, tanınmış meyxanaçı proqramda açıqlaması ilə diqqət çəkib.

Onun sözlərinə görə, qızı ABŞ-də Mehdi adlı bəylə ailə həyatı qurub: "Oğlan Amerikada işləyirdi. Qızım da təhsillə bağlı getdi. Həm ziyarət, həm ticarət. Onlar bir-birini çoxdan istəyirdilər. Həm təhsil almağa, həm onunla ailə qurmağa getdi. İyunun 8-də toy olub. Biz iştirak edə bilmədik. Qismət, Allah necə yazıb, elə də olmalıdır. Toyu da müğənni Elariz Məmmədoğlu idarə edib".





# Niyam da Aqşinə söz atdı: "Yaxşı oğlan..."

***"Mən Aqşini çox istəmirəm, yalan danışa bilmərəm".***

Bakıvaxtı.az xəbər verir ki, bu sözləri müğənni Niyam Salami "Rəngarəng səhər" verilişində meyxanaçı Aqşin Fatehdən danışarkən deyib. Niyam Aqşini bəyənmədiyini bildirib: "O, özünü istətməli bir hərəkət etməyib. Mən onu yaxından tanıyıram. Xarakterindən danışıram ha, "yaxşı oğlan, pis oğlan" məsələsi deyil. Mən onu "Maşın şou"da gördüm. Onun xarakterinə çox yaxından bləd olduğum üçün ona "yaxşı" deyə bilmərəm".

Xatırladaq ki, Niyam Salami və Aqşin Fateh "Maşın şou"nun 2019-cu il mövsümündə qalmaqal yaşayıblar. Onlar 5 ilə yaxındır ki, danışmırlar.

# "Onu bağışlamaq olarmı?" - Günel Zeynalova



***"Onu bağışlamaq olarmı?". Bu sözləri müğənni Günel Zeynalova sosial şəbəkə hesabında yazıb. Sənətçi paylaşımı ilə diqqət çəkib.***

"Bəlkə bir şans verilə bilər, amma qiymətsiz hiss etdirəni könül bağışlamaz. Nə özünə, nə qarşındakına boş əziyyətə dəyər" deyə, Günel əlavə edib.

# Talıbın toyuna ən çox pulu o yazdırıb

***"Toyuma dəvət etdiyim, lakin gəlməyən həmkarlarım oldu. Amma o da ki, "tək-tük" insanlar idi. Gəlməyənlər də öz nəmərlərini göndərdilər".***



Bu sözləri müğənni Talıb Tale qonaq olduğu "Rəngarəng səhər" verilişində deyib. Mayın 25-də ailə quran sənətçi toyuna ən çox yazılan məbləği açıqlayıb: "Toyum həftənin altıncı günü oldu. Mənim özüm də çox zaman olub ki, vaxt azlığına görə dəvət aldığım məclislərə gedə bilməmişəm və nəmər göndərmişəm. Mən bu kimi məqamları anlayışla qarşılayıram. Qətiyyən inciklik olmur. Mən özüm istəmədim ki, toyumda çox insan iştirak etsin. Dost-tanış, qohum-əqraba çoxdur. Hələ elə qohumlar da oldu ki, onları məclisdə yerləşdirə bilmədim. İstəmədim bu gün "salam aleyküm" elədiyimi sabahısı gün toyuma çağırım. Toyuma ən çox nəmər salan isə qohumlarımdan olan bir şəxs idi. O, 2 mindən çox nəmər salmışdı".

Qeyd edək ki, Talıb özündən 15 yaş kiçik olan Bahar adlı xanımla ailə qurub.

# Samira etiraz etdi: "Tanınmışlıq keçib gedir"

***"İstər gənc olsun, istər yaşlı, istər yerli, istərsə də xarici, mən gözəl səsləri sevirəm".***

Bu sözləri müğənni Samira AliMaryam (Allahverdiyeva - red.) "7 tamam" verilişində deyib.

İfaçı həmkarlarına səslənib: "Mən arzu edirəm ki, səhnəmizə gələn yeni nəslin nümayəndələri hobbi kimi gəlməsinlər. Bunu bacaran insanlar gəlsinlər. Tanınmışlıq onsuz da keçib gedir. İşini bacaran, bu sənəti doğrudan da bilən insanlar bu səhnəyə gəlsinlər".

## Ermənistan Azərbaycana nə qədər ziyan vurub? - Ekspert açıqladı



***"Vətən müharibəsindən əvvəl müəyyən mənbələrdə Ermənistanın Azərbaycana vurduğu zərərin məbləği 820 milyard dollar kimi göstərilirdi. Qeyd edəcəyim faktları nəzərə alsaq, bu işğalın Azərbaycan iqtisadiyyatına mənfi təsirinin bir trliyon dolları keçdiyini deyə bilərik. Bu işğal olmasaydı, Azərbaycan iqtisadiyyatı tam başqa göstəricilərə sahib ola bilərdi".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı-ekspert Eldəniz Əmirov deyib. O xatırladıb ki, işğal dövründə 900 yaşayış məntəqəsi, 6000-dən çox sənaye və kənd təsərrüfatı binası, 695 tibb müəssəsi, 693 məktəb, 7000 müxtəlif təyinatlı ictimai binalar, 927 kitabxana, 855 uşaq bağçası dağıdılıb.

"3000 km-ə kimi kommunikasiya xətləri, 15 000 km elektrik xətləri, 3000 km-ə kimi avtomobil yolları yerlə yeksan edilib. Qızıl və digər faydalı qazıntı yataqlarını vəhşicəsinə istismar ediblər. Kənd təsərrüfatı torpaqları qeyri-standart şəkildə istismar olunub. Meşə örtükləri məhv edilib, ekoloji terrora məruz qalıb. Həmçinin, Azərbaycan 30 il ərzində erməni işğalı səbəbindən böyük imkanları qaçırıb. 30 il bu torpaqlarda iqtisadi fəaliyyətlə məşğul olmadıq. Azərbaycanın 20 faiz ərazisindən ölkə iqtisadiyyatına bir qəpik vəsait daxil olmadı. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin saxlanmasına uzun illər vəsait ayrıldı. Qaçqınların və məcburi köçkünlərin sosial rifahı üçün xərclənən vəsaitlər, eləcə də, onların mənzil şəraitinin yaxşılaşdırılmasına, təhsil xərclərinin qarşılanmasına və digər sosial təminat məsələlərinə ciddi həcmdə pullar xərcləndi. Bu da hamısı deyil. Ermənistanın bizə etdiyi düşmənçilik və məkrli siyasətə görə Azərbaycan məcbur olub öz silahlanmasına böyük məbləğdə pul vəsaiti xərclədi.

Eyni zamanda strateji tərəfdaşlıq üçün iqtisadi münasibətlərdə bir çox ölkələrə güzəştə getdik. Hansı ki, Ermənistan faktoru olmasaydı, biz daha yaxşı şərtlər altında neft-qaz ticarətini apara və daha çox gəlir əldə edərdik.Torpaqlarımızı insan kapitalı və maliyyə resursları sayəsində azad etdik. Xərclənmiş vəsaitin kəmiyyət göstəriciləri ölçüyə gəlməzdi. Bu gün torpaqlarımız azad edilsə də, qarşıda işğaldan azad etdiyimiz ərazilərdə həyatın bərpa edilməsi üçün uzun illər və 100 milyardlarla vəsait lazım gələcək. Bütün bunları nəzərə alaraq qətiyyətlə deyə bilərik ki, Azərbaycan 30 il torpağı işğalda olan olan ölkə olmasaydı, bu gün tamamilə fərqli bir iqtisadi göstəricilərə və sosial rifah parametlərinə sahib olardı".

## Dövlət qulluqçularının orta aylıq əməkhaqqı açıqlanıb

***2024-cü il yanvarın 1-nə ölkədə dövlət qulluqçularının sayı 27,1 min nəfər olub ki, onların da 29,7 faizini qadınlar təşkil edir.***



Bu barədə "Unikal"a Dövlət Statistika Komitəsindən məlumat verilib. Dövlət qulluqçularının 7,3 faizi dövlət orqanlarında inzibati vəzifələrin ali - 3-cü təsnifatları, 3,8 faizi 4-cü təsnifatı, 11,7 faizi 5-ci təsnifatı, 7,9 faizi 6-cı təsnifatı, 46,6 faizi 7-ci təsnifatı, 22,7 faizi isə dövlət qulluğunun yardımçı vəzifələri üzrə işləyib. Dövlət qulluqçularının 4,6 faizi 1 ilədək, 25,4 faizi 1 ildən 5 ilədək, 22,5 faizi 5 ildən 10 ilədək, 19,3 faizi 10 ildən 15 ilədək, 28,2 faizi isə 15 il və daha çox qulluq stajına malikdir.

Dövlət qulluqçularının 2,5 faizini 25 yaşadək, 13,7 faizini 25-29 yaşda, 17,8 faizini 30-34 yaşda, 15,9 faizini 35-39 yaşda, 12,5 faizini 40-44 yaşda, 9,4 faizini 45-49 yaşda, 7,7 faizini 50-54 yaşda, 9,1 faizini 55-59 yaşda, 9,7 faizini 60-64 yaşda, 1,7 faizini 65 və yuxarı yaşda olan şəxslər təşkil edir. 2023-cü ildə dövlət qulluqçularının orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 8,3 faiz artaraq 1933,3 manat təşkil edib.

# Mədəniyyət Naziliyində yenə şübhəli tenderlər

## Nazirlər dəyişir, dövlət satınalmaları ilə bağlı müəmmalı məqamlar yox...

***2020-ci ildə Əbülfəs Qarayevin müavini də daxil olmaqla, bəzi yüksəkvəzifəli şəxslər həmin adamlara qarşı irəli sürülən ittihamların əsas hissəsi Mədəniyyət Nazirliyinin keçirdiyi dövlət satınalmaları və tenderlərdə yol verilmiş saxtakarlıq, yeyinti faktları ilə əlaqədar idi.***

Buna görə nazirlik rəsmiləri ilə yanaşı saxta tenderlərin qalibi olan şirkət rəhbərləri də məsuliyyətə cəlb olundular. Həmin fırıldaqlarda və dövlət mülkiyyətinin talan olunmasında iştirak edənlərin bir qismi həbsə göndərildi, bir qismi də, nazir başda olmaqla, vəzifəsindən azad olundu. İstintaqda ifadə verənlər isə bu işdə nazirin birbaşa əli olduğunu sübut edən məlumatlar veriblər...

Bu qalmaqalların ardınca Əbülfəs Qarayev ötən ilin mayında vəzifəsindən azad olundu. İyul ayından etibarən onun yerini Anar Kərimov tutdu. Lakin heç 2 il tamam olmadan, 2022-ci ildə Mədəniyyət Nazirliyində növbəti antikorrupsiya əməliyyatının keçirilməsi, bəzi vəzifəlilərin cinayət məsuliyyətinə cəlb edilməsi nəticəsində aydınlaşdı ki, adıçəkilən qurumda dəyişən heç nə yoxdur. Daha doğrusu, nazirlər dəyişir amma büdcə vəsiatlərinə, dövlət satınalmalarına, tenderlərə münasibətdə yenə "köhnə hamam, köhnə tasdır".



Nəticədə Anar Kərimov da postundan uzaqlaşdırıldı.

Onun yerinə Adil Kərimli gətirildi. 2022-ci ilin dekabrında mədəniyyət nazirinin birinci müavini təyin edilən, eyni zamanda mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyətləri tapşırılan Kərimli 2023-cü ilin aprelindən isə nazir postunu tutur.

Lakin təəssüf ki, Mədəniyyət Nazirliyinin keçirdiyi satınalma müsabiqələri, tenderlərlə bağlı ənənəvi iddialar, şübhələr hələ də aradan qalxmayıb. Məsələn, bu yaxınlarda yerli KİV yazıb ki, Mədəniyyət Nazirliyi "13" MMC (VÖEN- 1903366791) ilə satınalma müqaviləsi imzalayıb.

Diqqətçəkən məqamlardan biri odur ki, sözügedən nazirlik həmin müqaviləni tender müsabiqəsi keçirmədən, bir mənbədən satınalma metodu əsasında imzalayıb.

Yeniavaz.com yazır ki, müqavilənin şərtlərinə görə "13" MMC Mədəniyyət Nazirliyinin sifarişi əsasında Xorvatiya Hökümətinin nümayəndə heyəti üçün ziyafət təşkil edəcək və qarşılığında 8 min 330 manat alacaq.

Qeyd edək ki, 24 oktyabr 2017-ci il tarixində dövlət qeydiyyatına alınan "13" MMC-nin hüquqi ünvanı Suraxanı rayonu, Vüqar Quliyev (Qaraçuxur qəs.) ev 20, m. 4-də yerləşir. Qanuni təmsilçisi Sadıqzadə Əli Əhmədağa oğlu olan MMC-nin nizamnamə kapitalı 1 000 manat təşkil edir.

Onu da bildirək ki, "13" MMC bu ilin fevral ayında Mədəniyyət Nazirliyi ilə daha bir satınalma müqaviləsi imzalayıb. Dəyəri 55 min 200 manat olan müqavilənin şərtlərinə görə "13" MMC Azərbaycanda Belarus Mədəniyyət Günlərinin keçrilməsi ilə əlaqədar qonaqları qidalanma, nahar və şam yeməkləri ilə təmin edəcək.

Satınalma müqaviləsində diqqət çəkən başqa bir məqam da odur ki, göstəriləcək xidmətin başlama tarixi 13 mart 2024-cü il tarixi göstərilib. Lakin, Mədəniyyət Nazirliyinin 20 fevral 2024-cü ildə açıqladığı məlumatda Xorvatiya nümayəndə heyəti ilə görüş keçirildiyi qeyd olunub. (https://twitter.com/culture_gov_az/status/1759805078633103423).

Tender müsabiqəsində diqqət çəkən başqa bir məqam isə odur ki, bu müqavilə üzrə satınalma proseduru dövlət satınalmalarının vahid internet portalında keçirilməyib.

Məlumat üçün bildirək ki, "Dövlət satınalmaları haqqında" Qanunun 15.1 maddəsində göstərilir ki, məxfi məlumatlar istisna olmaqla bütün dövlət satınalmaları yalnız portal vasitəsi ilə həyata keçirilir.

Başqa bir məqam satınalmanın bir mənbədən satınalma metodu əsasında keçirilməsidir.

Bildiyimiz kimi, "Dövlət satınalmaları haqqında" Qanunun 49-cu maddəsində açıq şəkildə qeyd olunur ki, bir mənbədən satınalma metodu aşağıdakı hallarda tətbiq olunur:

- Satınalma predmeti yalnız hər hansı konkret təchizatçıda olduqda;
- Satınalma predmetinin əvəzedicisi və alternativi olmadıqda;
- Satınalma predmetinə təcili tələbat yarandıqda;
- Təbii fəlakətlər, texnoloji qəzalar, epidemiyalar baş verdikdə və fövqəladə xarakter daşıyan digər hallarda bilavasitə insanların həyat və sağlamlığına vurulan ziyanın qarşısının təcili alınması məqsədilə;
- Satınalma predmeti kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini təmin edən tələbata aid olduqda.

Qeyd edək ki, qonaqlar üçün ziyafət təşkil etməyin Qanunda göstərilən bu şərtlərdən hansına uyğun gəldiyi başa düşülən deyil.

Mədəniyyət Nazirliyi isə istər yuxarıdakı satınalma, istərsə də digər tenderlərlə bağlı medianın diqqət çəkdiyi şübhəli məqamlara aydınlıq gətirmək ehtiyacı hiss eləmir. Eynilə Əbülfəs Qarayevlə Anar Kərimovun zamanında olduğu kimi...

Adil Kərimlinin bütün bu baş verənlərlə bağlı bilgisinin olub-olmadığını dəqiq söyləmək mümkün deyil. Bircə o dəqiqdir ki, ondan əvvəlki nazirlərin öz postlarını itirməsində satınalma və tenderlərlə bağlı müəmmalar həlledici rol oynamışdı. Əgər həmin zərərli ənənəni Mədəniyyət Nazirliyində kimlərsə hələ də davam etdirmək imkanına malikdirlərsə, onda bu dəfə də sonluq çətin ki, fərqli olsun...

***Sənan Mirzə***

# Fransa Ermənistanı savaşa sürükləyir:

## Revanşizmi körükləyən siyasət nəyə hesablanıb?

***Son günlərdə Fransanın Ermənistanı silahlandırması barədə məsələlər yenidən gündəmə gəlib. Belə ki, Fransa ilə Ermənistan arasında "Caesar" özüyeriyən artilleriya qurğularının alqı-satqısı barədə müqavilə imzalanıb.***

Qeyd edək ki, Ermənistanın müdafiə naziri Suren Papikyan Fransaya səfəri çərçivəsində həmkarı Sebastyan Lekornu ilə görüşüb. Danışıqlar zamanı hərbi-texniki əməkdaşlığa dair yeni razılaşmalar əldə olunub. Ermənistan Müdafiə Nazirliyi və Fransanın hərbi-sənaye şirkəti KNDS arasında müvafiq saziş imzalanıb.Həmçinin, Ermənistanın müdafiə naziri silahlı qüvvələrdə Fransa ilə əməkdaşlıq çərçivəsində aparılan islahatların gedişatını təqdim edib. Bu, nazirlərin son bir ildə ikinci görüşüdür. Əvvəlki görüş fevralda İrəvanda baş tutub. Qeyd edək ki, digər hərbi-texniki vasitələrlə yanaşı, Fransa Ermənistana "Caesar" özüyeriyən haubitsalarını tədarük edəcək. Fransanın müdafiə naziri Sebastyan Lekornu bildirib ki, onun ölkəsi Ermənistanla müdafiə sahəsində əlaqələri gücləndirməkdə davam edir. Nazir qeyd edib ki, "Caesar" haubitsalarının Ermənistana tədarükü yeni mühüm mərhələdir.



Azərbaycan Müdafiə Nazirliyinin bəyanatında bildirilib ki, Azərbaycan tərəfinin xəbərdarlığına rəğmən Fransanın Ermənistanı öldürücü və hücum təyinatlı artilleriya qurğuları və digər silah növləri ilə təchiz etməsi Fransanın Cənubi Qafqaz regionunda təxribatçı fəaliyyət aparmasının növbəti sübutudur. Qeyd olunub ki, Fransa Müdafiə Nazirliyi keçən ilin oktyabrında verdiyi açıqlamasında Ermənistana tədarük edilən hərbi texnikanın müdafiə xarakteri daşıdığını iddia etsə də, hazırkı hərbi sövdələşmə ilə Ermənistanın öldürücü silahlarla təchiz edilməsi Fransa rəhbərliyinin riyakarlığının növbəti təzahürüdür: "Cənubi Qafqaz regionunda militarizasiya və geosiyasi intriqa siyasəti yürüdən Makron rejimi Ermənistan ilə Azərbaycan arasında normallaşmaya və regionda davamlı sülhün təmin olunmasına maneə olur. Bu kimi destruktiv və qərəzli siyasətinə görə normallaşma və regional proseslərdən kənarda qalan Fransanın indiki rəhbərliyi bunu Azərbaycana bağışlaya bilmir və ona görə də pozucu siyasətini davam etdirir. Ermənistan Azərbaycana qarşı hərbi təcavüz və işğal törətmiş dövlətdir. BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Fransa tərəfindən qanlı hərbi təcavüz törətmək təcrübəsi olan Ermənistanın yenidən silahlandırılması və Ermənistan rəhbərliyinin revanşizm siyasətini dəstəkləməsi siyasi məsuliyyətsizlik olmaqla bərabər yeni müharibəyə aparan yoldur. Bəyan edirik ki, Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə və yeni müharibə ocağının yaranmasına görə məsuliyyəti tam şəkildə revanşist siyasət yürüdən Ermənistan rəhbərliyi və Makron diktaturası daşıyacaq".

Həmçinin, ötən gün Azərbaycan Respublikası Prezidentinin Köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də məsələyə münasibət bildirib. Onun sözlərinə görə, Fransanın Cənubi Qafqazla bağlı siyasəti zərərlidir: "Fransanın Ermənistanı silahlandırması indiyə qədər əldə olunmuş nəticələrə, Qafqazda sülhə təhdiddir. Bu, Azərbaycan və Ermənistan arasında normallaşma prosesinə zərbədir. Fransanın militarizasiya siyasəti Ermənistanda revanşist qüvvələri həvəsləndirəcək addımdır. Ermənistana öldürücü silahların verilməsi ciddi narahatlıq doğuran haldır. BMT TŞ-nin üzvü olaraq Fransa məsuliyyətli siyasət həyata keçirməlidir. Ermənistan Cənubi Qafqazda işğal və təcavüz törədən ölkədir. Belə ölkənin silahlandırılması məqbul hesab olunmur".

Mövzu ilə bağlı "Unikal"a açıqlama verən politoloq Qabil Hüseynli qeyd edib ki, Ermənistan sülhdən danışa-danışa revanşizm siyasətinə qulluq edir: "Fransa da ermənilərə dəstək olur. Belə ki, onlara bəzi silahları pulsuz, bəzilərini isə çox aşağı endirimlə, yeni, öz ölkəsində olduğu qiymətə satır. İlk dəfə ermənilərə 35-40 ədəd piyadaların döyüş maşınını verdi. Bundan başqa, Fransanın digər silahları da Ermənistana göndərdiyi hər kəsə məlumdur. İndi isə Ermənistanın müdafiə naziri Suren Papikyan Fransadadır. Fransanın ən modern silahlarından olan "Caesar" özüyeriyən artilleriya qurğularının alqı-satqısı ilə məşğuldur. Ümumilikdə, biz görürük ki, Ermənistan müharibədən sonra əməlli-başlı silahlanıb. Özü də bunlar müdafiə xarakterli silahlar deyil, hücum silahlarıdır. Bu nöqteyi-nəzərdən sülh müqaviləsinin imzalanması da ləngiyir.

Ermənistanın baş naziri Nikol Paşinyan bir neçə gün əvvəl demişdi ki, 1 ay ərzində sülh sazişini imzalamağa hazırdırlar. İndi isə silahlanmaqla məşğuldurlar. Azərbaycan tərəfi araşdırmalıdır ki, bunlar bizimlə oyun oynayır, yoxsa başqa məqsədləri var? Onu da vurğulayaq ki, Rusiya da sülh müqaviləsinə mane olur. Azərbaycan Rusiya və Fransaya əhəmiyyət vermədən ermənilərlə tam hazır olan sülh müqaviləsinin imzalanması prosesini sürətləndirməlidir", - deyə o bildirib.

"Ermənistanın Fransa ilə hərbi əməkdaşlıq müqaviləsi bağlaması bölgədə sülhə təhdiddir". Bunu isə bakıvaxtı.az-a Türkiyənin Ərciyəs Universitetinin professoru, ermənişünas alim Qafar Çaxmaqlı Ermənistanla Fransa arasında hərbi-texniki əməkdaşlığa dair müqavilənin bağlanmasına münasibət bildirərkən deyib. Onun sözlərinə görə, ötən dövrdə Ermənistan zirehli maşınlar alırdısa, indi hücüm silahları alır: ""Caezar" haubitsaları Fransanın bir neçə ölkəyə satdığı artilleriya qurğusudur. Onların Ermənistana verilməsi bölgədə Fransanın məkirli məqsədlərinin olduğuna işarədir. Bu silahlar kimə qarşı istifadə olunacaq?! Hər halda bunu fikirləşiblər".

Müsahibimiz qeyd edib ki, Fransa Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının müsbət nəticələnməsini istəmir. Gərginliyin qalması Fransanın Cənubi Qafqaza soxulması üçün şərait yarada bilər. Q.Çaxmaqlı bəyan edib ki, Afrikadakı ölkələrdən qovulmuş Fransa özünə Ermənistanın timsalında yeni müttəfiq axtarır: "Ermənistan hökuməti anlamır ki, belə şəraitdə Ermənistan üçün heç bir yeni perspektivlər yaranmayacaq. Silahların təmin edilməsini Ermənistanın dirənişi üçün önəmli faktor olduğuna inananlar dərk etmirlər ki, bu ölkənin təhlükəsizliyi məsələsi Fransadan gələn silahlara deyil, sülhə bağlıdır. Ermənistan nə qədər çox silahlanarsa, ona bir o qədər təhlükə yaranacaq. Azərbaycan Ermənistana xəbərdarlıq edib. Ermənistanda da artıq belə müzakirələr gedir".

***Murad İbrahimli***

# Memarlıq abidələrində aparılan təmir işləri ilə bağlı işçi qrup yaradıldı

***Son günlər Bakı şəhərində yerləşən bir sıra memarlıq abidələri olan binalarda aparılan təmir-bərpa və abadlıq işləri ictimaiyyət arasında müzakirələrə yol açıb. Bu narahatlıq bəzi tarixi bina fasadlarının, o cümlədən daşla üzlənmiş binaların rənglənməsi işlərinə başlanılmasıdır.***

"Unikal" xəbər verir ki, bu barədə Mədəniyyət Nazirliyi məlumat yayıb.

Məlumatda qeyd edilib ki, aparılan abadlıq işlərin səbəbi - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində paytaxt ərazisində bir sıra binalarda, o cümlədən memarlıq abidələrində təmir-bərpa işlərinin həyata keçirilməsidir.

"Bir daha xatırladırıq ki, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, abidələrin üzərində bərpa, konservasiya, təmir, rekonstruksiya, regenerasiya və digər işlər onların layihələri Azərbaycan Milli Elmlər Akademiyasının müvafiq institutlarının rəyi nəzərə alınmaqla, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılaraq, Mədəniyyət Nazirliyi tərəfindən təsdiq edildikdən sonra aparılmalıdır. Hal-hazırda həyata keçirilən işlərin təciliiliyini nəzərə alaraq, yaranan problemləri yerində həll etmək məqsədi ilə sözügedən təşkilatların əməkdaşlarından ibarət olan işçi qrup yaradılmışdır. Daimi olaraq müvafiq işlərin aparıldığı tarixi binalara baxış keçirir, görülən işlər nəzarətdə saxlanılır. Sözügedən tədbirlər Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeliyində Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi və Azərbaycan Memarlar İttifaqı ilə birgə müvafiq işləri həyata keçirən "Bakı Abadlıq Xidməti" MMC ilə koordinasiyalı şəkildə təmin edilməsi üçün tədbirlər görülüb.

Təəssüflə etiraf etmək lazımdır ki, son illər ərzində abidələrimiz məhz istifadəçilər tərəfindən ciddi təsirlərə məruz qalmışdır - qapı-pəncərə ətrafındakı daş fasadlar rənglənmiş, balkon və eyvanlar şüşələnmiş, fasadlarda müxtəlif naqillər və borular çəkilmiş, birinci mərtəbələrdə fasadlar müasir materiallarla üzlənmiş, kondisionerlər və reklamlar quraşdırılmışdır və s. 2000-ci illərin əvvəllərində yuxarıda qeyd olunan qanunsuz əlavələri aradan qaldırmaq üçün fasadların ümumi təmizlənməsi, o cümlədən qəbuledilməz üsullarla, eləcə də bir çox binaların, o cümlədən daş binaların bir rəngə boyanması baş verdi. Bəzi hallarda memarlıq abidələrinin nəinki tarixi görkəmi itirilmiş, tikililərə bərpası mümkün olmayan ziyan dəymişdir. Məsaməli əhəngdaşının müasir boyalarla rənglənməsi ona gətirib çıxarmışdır ki, bu gün daş örtüklərin müəyyən yerlərdə, xüsusilə abidələrimizə gözəllik yaradan təkrarsız memarlıq detallarının ovulması baş tutub.

Uzun illər ərzində müxtəlif müdaxilələrə məruz qalmış fasadların görkəminə qaytarılması, eyni zamanda qopmuş, qırılmış yerlərinin bərpası, kommunikasiya xətlərinin və məişət qurğularının səliqəyə salınması həyata keçirilir.

Qeyd olunanlarla bağlı uzun illər öncə görkəmi dəyişdirilən və ona uyğun olaraq yenidən rənglənən fasadların təmizlənməsi təmin olunur. Fasadların daş hissələri, o cümlədən son illərdə rənglənmiş daş fasadlar təzyiq altında su ilə təmizlənir. Lakin əvvəlcədən daşla üzlənməyən binaların hissələri tikinti zamanı istifadə olunan orijinal rəngə mümkün qədər uyğun gələn rənglə boyanacaq. Təmir-bərpa və abadlıq işlərinin tarixi abidələrin memarlıq üslubuna, bədii-estetik görkəminə xələl yetirilmədən aparılmasına ciddi nəzarət olunur", - məlumatda vurğulanır.

20_27 IYUI-QARA.qxd 6/20/2024 11:21 PM Page 5



# Prezidentdən Polis Akademiyası ilə bağlı fərman



*"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Bayrağının təsviri"ndə dəyişiklik edilib.*

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev fərman imzalayıb. Fərmanla "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Bayrağının təsviri" aşağıdakı redaksiyada verilir:

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Bayrağı ikiüzlü qumaşdan, dəstəkdən və qotazlı qaytandan ibarətdir. Bayrağın qumaşı Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərinə uyğun üçrəngli, ikiqat ipək faydan hazırlanır, uzunluğu 160 sm, eni 80 sm-dir, kənarları üç tərəfdən qızılı rəngli ipək saçaqlarla köbələnmişdir. Qumaşın üz tərəfi "Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun tələblərinə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri ilə eynidir, lakin mavi zolağın ortasında qızılı rəngli ipək sapla "AZƏRBAYCAN UĞRUNDA" sözləri yazılır. Yazıdakı hərflərin hər birinin hündürlüyü 4,5 sm, eni 3,3 sm-dir (Şəkil 1).

Qumaşın arxa tərəfində mavi zolağın ortasında qızılı rəngli ipək sapla "AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ", yaşıl zolağın ortasında "POLİS AKADEMİYASI" sözləri, qırmızı zolağın ortasında isə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 30 iyun tarixli 82 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası daxili işlər orqanlarının embleminin təsviri"nin tələblərinə uyğun hündürlüyü 35 sm olan Azərbaycan Respublikası daxili işlər orqanlarının emblemi tikilir. Yazılardakı hərflərin hündürlüyü 4,5 sm, eni 3,4 sm-dir (Şəkil 2).

Bayrağın dəstəyi en kəsiyinin diametri 4 sm, uzunluğu 250 sm olan girdə taxtadandır. Dəstək tünd qəhvəyi boya ilə rənglənir və laklanır, aşağı ucunda metal halqa, yuxarı ucunda nikellənmiş aypara və ulduz şəklində fiqurlu ucluq vardır.

Bayrağın qaytanı eşmədir, qızılı rəngli ipəkdən hazırlanır, hər iki ucunda qotaz var. Qaytanın uzunluğu 200-210 sm-dir".

# Kərim Vəliyev Serbiyada döyüş sistemləri zavodunda olub

*Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin Serbiyaya rəsmi səfəri davam edir.*

"Unikal" MN-ə istinadən xəbər verir ki, general-polkovnik K.Vəliyev rəhbərlik etdiyi nümayəndə heyəti ilə birgə "Yugoimport SDPR" şirkətini ziyarət edib.

Baş Qərargah rəisi şirkətin məhsulları ilə tanış olduqdan sonra döyüş sistemləri zavoduna gəlib. Azərbaycan nümayəndə heyətinə zavodun əsas fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib. Daha sonra "Rastko Nemaniyç" hərbi şəhərciyi və xüsusi əməliyyatlar briqadası ziyarət olunub. Burada Azərbaycan Ordusunun Baş Qərargah rəisinə silah və texnika nümunələri təqdim edilib.

General-polkovnik K.Vəliyev sonda döyüş hazırlığı üzrə icra edilən fəaliyyətləri izləyib.

# Prezident və məmurların adından saxta müraciət yayanlar həbs edildi

*Dövlət və ictimai xadimlərin adından saxta müraciətlər hazırlayan kibercinayətkar şəbəkə ifşa olunub.*

Bu barədə "Unikal"a Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən məlumat verilib.

Qeyd olunub ki, kibercinayət yolu ilə Azərbaycan Prezidentinin, digər dövlət və ictimai xadimlərin adından süni intellekt proqramları - "deepfake" texnologiyaları vasitəsilə saxta videomüraciətlərin hazırlanması, bu yolla müxtəlif sosial şəbəkələrdə Dövlət Neft Şirkəti ("SOCAR"), "Kapital Bank", "Azərbaycan Beynəlxalq Bankı" tərəfindən iri məbləğlərdə qazanc vədi verən saxta elanlar yaymaqla vətəndaşların pul vəsaitlərinin ələ keçirilməsi faktları ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Cinayət Məcəlləsinin 272.2.1, 272.2.2 (Mütəşəkkil dəstə tərəfindən təkrar olaraq kompüter məlumatlarını qanunsuz ələ keçirmə), 273-2-ci (Kompüter məlumatlarının saxtalaşdırılması) və 178.3.1 (Mütəşəkkil dəstə tərəfindən dələduzluq) maddələri ilə cinayət işi başlanılıb.

Cinayət işi üzrə kompleks araşdırmalar aparılaraq kibercinayətlərin törədildiyi ölkələr müəyyən edilib, həmin dövlətlərin aidiyyəti orqanları ilə operativ prosessual əməkdaşlıq çərçivəsində beynəlxalq kibercinayətkar şəbəkə ifşa olunmuş, qeyd olunan cinayət əməllərinin qarşısı alınıb.

Müəyyənləşdirilib ki, kibercinayətkarların yaratdıqları saytlara istinadən internetin Azərbaycan seqmentinin istifadəçilərinə təqdim edilən çoxsaylı saxta elanlarda vətəndaşlar müxtəlif investisiya layihələrinə pul vəsaiti yatırmağa dəvət edilmiş, köçürülmüş vəsaitlərin müntəzəm olaraq əhəmiyyətli dərəcədə artması görüntüsü yaradılmış, vəd edilmiş investisiya qazancının zərərçəkmiş şəxslərin bank kartlarına köçürülməsi adı altında, habelə kibercinayət yolu ilə sonuncuların kart məlumatları əldə edilərək həmin kartlardakı pul vəsaitləri ələ keçirilib.

Azərbaycanın və digər ölkələrin vətəndaşlarının külli miqdarda pul vəsaitlərini analoji cinayət əməlləri




ilə ələ keçirmiş beynəlxalq kibercinayətkar qruplaşmanın üzvləri Ukrayna ərazisində yerli hüquq-mühafizə orqanları tərəfindən cinayət məsuliyyətinə cəlb edilib, transmilli mütəşəkkil dəstənin cinayət əməllərinin törədilməsində iştirak etmiş Azərbaycan vətəndaşları - 1998-ci il təvəllüdlü Zöhrabov Rafiq Mahir oğlu və 1979-cu il təvəllüdlü Niftəlıyev Sərdar Əlixan oğlu Azərbaycanda cinayət məsuliyyətinə cəlb olunmuş, məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə araşdırmalar və beynəlxalq hüquqi əməkdaşlıqdan irəli gələn cinayət-prosessual tədbirlər davam etdirilir.

# Milli Məclisdə dinləmə keçirilib

*Milli Məclisdə ictimai dinləmə keçirilir. İctimai dinləmə "Sağlam ailə modeli və nikah hüququ" mövzusunda keçirilir.*

Qeyd edək ki, iclas Ailə, qadın və uşaq məsələləri komitəsi, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin birgə təşkilatçılığı ilə baş tutub.

Müvafiq icra nümayəndəsinin icazəsi ilə nikah yaşının 1 il azaldılmasını düzgün sayıram və bu maddə qalmalıdır. Mən rayon icra hakimiyyətinin qərarı ilə 1 il tez evlənən ailələrdən birində problem görməmişəm.

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin deputatı Tahir Kərimli parlamentdə "Sağlam ailə modeli və nikah hüququ" mövzusunda keçirilən ictimai dinləmədə çıxışı zamanı deyib.

"Çox maraqlıdır ki, bu maddənin ləğv olunmasının arayış hissəsində yazılır ki, bu maddə uşaq psixologiyasını və sağlamlığını pozur. Necə ola bilir ki, 16 yaşına çatmış şəxslər arasında qanundan və nikahdan kənar, əxlaqsızlıq hesab etdiyim cinsi münasibətlər olur,



amma heç bir cəza tətbiq edilmir?! Ancaq 17 yaş 9 aylıq, atası ağır xərçəng xəstəsi və ölüm ərəfəsində olan birinə rayon icra hakimiyyəti nikaha icazə verir və buna uşaq psixologiyası pozulur deyirik", - T.Kərimli vurğulayıb.

Deputat təklif edib ki, belə olan halda 18 yaşına çatmamış, rəsmi nikah olmadan cinsi münasibətlərdə olan uşaqların valideynləri 5000 manat cərimə edilsin: "Deyək ki, necə belə tərbiyəsiz uşaqlar böyüdüb nəzarət etmirsiniz?! Cəmiyyəti sağlamlaşdırmaq istəyiriksə, belə valideynlər maddi və mənəvi cəhətdən ziyan çəksinlər. Yoxsa mində bir hadisə olur ki, icazə alıb bir il tez nikah qurulur onu problem edirik. Hesab edirəm ki, 12-ci maddə qalmalıdır əvəzinə yetkinlik yaşına çatmayanların nikahdan kənar münasibətlərinə görə valideynləri yüksək məbləğdə cərimə olunsun".

MM-in Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova isə T.Kərimliyə cavabında bildirib ki, bu maddədən çox sui-istifadə edən insanlar var: "Dediniz ki, tək-tük belə hallar var, amma bu, belə deyil. Erkən nikahla bağlı icra hakimiyyətindən icazə alınır, lakin baxırsan ki, cəmi 1 %-in ata-anası ağır vəziyyətdədir. Qalanları tam sağlam ailələrdir. Sadəcə valideynlərin beyninə düşür ki, oğlumu və ya qızımı evləndirmək istəyirəm. Statistikaya baxsaq görərik ki, evlənmək istəməyən nə qədər qız uşağı özünü öldürür. Şəxsən neçəsi evdən qaçıb mənim yanıma gəlib ki, evlənmək istəmirəm. Bəs onlara necə kömək edək?! Bu 1 il gözləmək nə üçün belə böyük problemə çevrilib ki, bunlar dözə bilmirlər 18 yaşına çatsın sonra ailə qursun?!".

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# I sinfə qəbulla bağlı 31 mindən çox sorğu yerləşdirilib

*İyunun 20-nə (saat 11:00) olan məlumata əsasən, paytaxt məktəblərinin birinci sinfinə 31 225 uşaq üçün elektron sistem (https://mektebeqebul.edu.az/) vasitəsilə sorğu yerləşdirilib.*

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən "Unikal"a verilən xəbərə görə, paytaxt məktəblərinin birinci siniflərinə elektron qeydiyyat prosesi ilə bağlı valideynlər tərəfindən ünvanlanan 5 302 müraciət operativ şəkildə cavablandırılıb. Daxil olan müraciətlərdən 2 033-ü alternativ qeydiyyat mərkəzlərində, 107-si onlayn alternativ qeydiyyat mərkəzlərində ("WhatsApp"müraciətləri), 2 306-sı sistemin "Əlaqə" bölməsi vasitəsilə cavablandırılıb və valideynlərə müvafiq dəstək göstərilib. 856 valideyn isə 5, 6 və 7 saylı "ASAN xidmət" mərkəzlərinin təhsil xidmətləri bölməsinə müraciət edib.

Qeyd edək ki, 2024-2025-ci tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə elektron qeydiyyat sentyabrın 13-nə qədər davam edəcək. www.mektebeqebul.edu.az sistemi vasitəsilə özü elektron qeydiyyatdan keçə bilməyən və ya internet resurslarına çıxış imkanı olmayan vətəndaşlar aidiyyəti ərazi üzrə fəaliyyət göstərən ən



yaxın alternativ qeydiyyat mərkəzinə (https://baku.edu.gov.az/az/page/276), eləcə də 5, 6 və 7 saylı "ASAN xidmət" mərkəzlərinin təhsil xidmətləri bölməsinə müraciət edə bilərlər.

Vətəndaşlara alternativ qeydiyyat mərkəzlərində həftənin I-V günləri saat 10:00-dan 17:00-a qədər xidmət göstərilir. Valideyn alternativ qeydiyyat mərkəzlərinə müraciət edərkən övladını özü ilə aparmasına ehtiyac yoxdur.

Qeyd edək ki, sistemdə elektron qeydiyyatdan keçə bilməyən valideynlərə "WhatsApp" vasitəsilə (070-996-76-63, 070-996-36-62, 070-996-46-68) müraciətlərin cavablandırılması üçün müvafiq işçi qrupları tərəfindən də zəruri köməklik göstərilir.

# Azərbaycan parlamenti buraxılır: Növbədənkənar seçkilər gündəmdə

## YAP-çı deputatlar növbədənkənar parlament seçkiləri ilə bağlı Prezidentə müraciət edəcəklər



***İyunun 20-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, iclasın gündəliyi barədə məlumat verən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son illər tarixi qələbələr əldə edilmiş, ictimai-siyasi həyatın, dövlət idarəçiliyinin bütün sahələrində çoxşaxəli və məqsədyönlü islahatlar uğurla və ardıcıl şəkildə həyata keçirilmişdir: "Bunun nəticəsi olaraq ölkəmiz özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 2020-ci ildə Vətən müharibəsində qazanılmış şanlı Zəfər nəticəsində Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinə son qoyulmuş, ölkəmizin ərazi bütövlüyü bərpa edilmiş, beynəlxalq hüququn norma və prinsiplərinin aliliyi təmin olunmuşdur. 2023-cü ilin sentyabrında həyata keçirilmiş antiterror tədbirləri ilə qanunsuz silahlı birləşmələr zərərsizləşdirilmiş, kriminal xunta rejiminin fəaliyyətinə son qoyulmuş, dövlətimizin suverenliyi onun bütün ərazisində bərqərar edilmişdir. Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri davam etdirilir, doğma yurd-yuvasından didərgin salınaraq illərlə məcburi köçkün həyatı yaşamağa məhkum olunmuş soydaşlarımız ləyaqətli şəkildə əzəli torpaqlarına qayıdırlar. Müstəqillik tariximizdə ilk dəfə bütün ölkə ərazisində 2024-cü ildə keçirilmiş Prezident seçkiləri milli birlik və həmrəyliyimizin növbəti təzahürü olmuşdur".

YAP Sədrinin müavini vurğulayıb ki, ölkəmizin dünyada nüfuzunun daha da yüksəlməsinə və beynəlxalq ictimaiyyətin Azərbaycana etimadının daha da güclənməsinə növbəti dəfə 2023-cü ilin dekabrında şahidlik etdik: "Belə ki, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası kimi mötəbər beynəlxalq tədbirlərin 2024-cü ilin noyabr ayında Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilmişdir. Azərbaycan qlobal tədbirlərə ev sahibliyi sahəsində böyük təcrübəyə malik olmasını, həmçinin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan edərək iqlim dəyişmələrinə qarşı fəal mübarizə mövqeyi nümayiş etdirməsini nəzərə alaraq, COP29-un da ən yüksək səviyyədə keçiriləcəyinə və yeni uğura imza atılacağına əminik. Bu tədbirlər on minlərlə xarici qonağa Azərbaycanı yaxından tanıtmaq, ölkəmizin bütün dünyada ədalətli sülhə, bərabərliyə, haqqa və hüquqa əsaslanan münasibətləri təbliğ və təşviq edən mövqeyini çatdırmaq üçün əlverişli fürsət olacaqdır".

Tahir Budaqov əlavə edib ki, BMT-nin İqlim Dəyişmələri üzrə çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının və digər mötəbər beynəlxalq tədbirlərin keçiriləcəyi vaxtda - 2024-cü ilin noyabr ayında Azərbaycan Respublikası Konstitusiyasının 981 maddəsinin II hissəsinə əsasən Azərbaycan Respublikasının Milli Məclisinə növbəti seçkilər keçirilməlidir: "Həm seçkilərin, həm də qeyd olunan tədbirlərin yüksək səviyyədə təşkili mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, həmin dövrdə ölkə parlamentinin tam fəaliyyətdə olmasının məqsədəmüvafiqliyi də nəzərə alınmalıdır. Altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisi fəaliyyət dövrü ərzində dövlətin daxili və xarici siyasətini qanunvericilik səviyyəsində dəstəkləmək, dövlət idarəetməsinin təşkili və daha da təkmilləşdirilməsi fəaliyyətində yaxından iştirak etmək, yerlərdə seçicilərlə müntəzəm iş aparmaq, həmçinin parlament diplomatiyasının verdiyi imkanlardan səmərəli istifadə olunması sayəsində milli maraqları beynəlxalq məkanda təşəbbüskeşliklə təmsil etməklə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışdır. Hesab edirik ki, indiki şəraitdə də Milli Məclis dövlət maraqlarını üstün tutaraq Milli Məclisin buraxılması və seçkilərin daha erkən keçirilməsi təşəbbüsü ilə çıxış etməlidir".

Sonra YAP Sədrinin müavini Əli Əhmədov, YAP İdarə Heyətinin üzvləri Hikmət Məmmədov, Musa Quliyev, Elşad Mirbəşiroğlu, Kamal Cəfərov, Anar İsgəndərov, Tahir Mirkişili və Bahar Muradova parlament seçkilərinin önə çəkilməsinin məqsədəuyğunluğunu əsaslandıraraq məsələyə münasibət bildiriblər.

Yekunda Yeni Azərbaycan Partiyasını Azərbaycan Respublikasının Milli Məclisində təmsil edən deputatlara altıncı çağırış Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə müraciət olunması üçün təşəbbüs göstərmələrinin tövsiyə edilməsi barədə yekdil qərar qəbul edilib.

# Doğum evində qazidən rüşvət tələb edildi - TƏBİB araşdırma aparır



***Qaradağ rayon Lökbatan qəsəbəsində yerləşən 4 saylı doğum evində Vətən müharibəsi qazisindən rüşvət tələb olunduğuna dair görüntülər yayılıb.***

"Unikal" xəbər verir ki, sözügedən görüntülər sosial şəbəkədə paylaşılıb. İddiaya görə, Sevinc adlı tibb bacısı qazidən övladının anadan olmasına görə pul istəyib.

19.06.2024-cü il tarixində saat 11:05 radələrində 2005-ci il təvəllüdlü şəxs doğuş üçün Lökbatan Tibb Mərkəzinin nəznində yerləşən 4 saylı Doğum evinə müraciət edib. 19.06.2024-cü il tarixində Doğum şöbəsinin həkimi mama-ginekoloq Sevinc Məmmədovanın iştirakı ilə saat 13:30-da radələrində pasiyentin qız övladı dünyaya gəlib. Bu barədə "Unikal"ın sorğusuna cavab olaraq TƏBİB-dən bildirilib.

Görüntülərdə əks olunan hadisə ilə bağlı hazırda TƏBİB tərəfindən araşdırılma aparılır. Araşdırma yekunlaşdıqdan sonra əlavə məlumat veriləcəkdir.

# Aqil Qurbanov İtaliyada səfərdədir

***Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanov İtaliya Respublikasına səfər edib.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Səfər çərçivəsində Baş direktor İtaliya Respublikasının müdafiə naziri cənab Quido Krosetto ilə görüşüb.

Azərbaycan ilə İtaliya arasında münasibətlərin strateji tərəfdaşlığa əsaslandığı qeyd olunan görüşdə hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

Görüşdə, həmçinin birgə layihələr, eləcə də bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# MEDİA müsabiqənin nəticələrini açıqladı




***Medianın İnkişafı Agentliyi (MEDİA) tərəfindən onlayn və çap mediasına dəstək layihəsi çərçivəsində elan edilmiş müsabiqənin nəticələri açıqlanıb.***

Müsabiqədən keçən media subyektlərinin siyahısını təqdim edirik.

Qaliblər sırasında "Unikal" qəzeti və "Unikal.az" Xəbər Portalı da var.

# "Rəsmi nikah olmadan dini kəbin kəsilməsin" - Deputat

***"Rəsmi nikah olmadan dini kəbin kəsilməsini həyata keçirənlərlə bağlı cəza mexanizmi olmalıdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə "Sağlam ailə modeli və nikah hüququ" mövzusunda keçirilən ictimai dinləmədə deputat Ceyhun Məmmədov deyib.

O bildirib ki, belə nikahlar uzun müddət davam etmir: "Çünki rəsmi nikah olmadığından tərəflər ciddi məsuliyyət daşımır. Bir müddət sonra boşanma baş verir və bu da ciddi narahatlıq doğurur. Qafqaz Müsəlmanları İdarəsinin də tövsiyəsi var idi ki, rəsmi nikah olmadan dini kəbinin kəsilməsin. Bu sadəcə tövsiyə şəklindədir. Ona görə də hesab edirəm ki, bununla bağlı ciddi cəzalandırma mexanizmi olmalıdır".

***Anar Kəlbiyev***

# Azərbaycanla bu ölkə arasında viza rejimi ləğv edilir

***Azərbaycan və Mərakeş ümumvətəndaş pasportlarının sahiblərini viza tələbindən azad edir.***

"Unikal"ın xəbərinə görə, bu, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin bu gün keçiriləcək iclasının gündəliyinə daxil edilən "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında ümumvətəndaş pasportlarının sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə" qanun layihəsində əksini tapıb.

20_27 IYUI-QARA.qxd 6/20/2024 11:21 PM Page 7



# YAP nümayəndələri Vladivostokda keçirilən beynəlxalq forumda iştirak ediblər




***Milli Məclisin deputatları, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü Elşad Mirbəşiroğlu və YAP Təftiş Komissiyası sədrinin müavini Nizami Səfərov iyunun 17-də Rusiya Federasiyasının Vladivostok şəhərində keçirilən "Qlobal əksəriyyət çoxqütblü dünya tərəfdarıdır" mövzusunda siyasi partiyaların beynəlxalq forumunun iclaslarında iştirak ediblər.***

"Unikal" xəbər verir ki, "BRICS+" formatında keçirilən və 32 ölkədən 150-dən çox nümayəndənin iştirak etdiyi tədbirin "Dünya dövlətlərinin informasiya məkanında məsuliyyətli davranışı geniş rəqəmsallaşma şəraitində hamının bərabər olduğu dünya düzəninin qurulmasının zəruri şərti kimi" mövzusunda plenar iclasında çıxış edən YAP İdarə Heyətinin üzvü Elşad Mirbəşiroğlu qeyd edib ki, BMT-nin üzvü olan dövlətlər arasında informasiya məkanında məsuliyyətli davranış prinsipləri haqqında sazişin olmasına baxmayaraq, bu sahədə təhlükəsizliyin təmin edilməsi prinsiplərinin qəsdən pozulması halları tez-tez müşahidə olunur. Onun sözlərinə görə, bəzi güclü ölkələr texnoloji üstünlükdən istifadə edərək öz iradələrini digər dövlətlərə diktə etməyə və onların daxili siyasətinə təsir göstərməyə çalışırlar.

E.Mirbəşiroğlu müstəqil siyasət yürüdən Azərbaycanın informasiya məkanında təhdidlərlə üzləşmək risklərinin yüksək olduğunu vurğulayıb: "Ötən il 1192 xüsusi təhlükəsizlik göstəricisi bloklanıb ki, bu da dövlət qurumlarını məqsədyönlü kiberhücumlardan qorumağa imkan verib. Həmçinin Azərbaycanın domen zonasında qeydiyyatdan keçmiş 97 informasiya resursu kiberhücumlara məruz qalıb. Bu faktlar informasiya məkanında təhlükəsizlik məsələsinin daha ciddi olduğunu göstərir. Müvafiq olaraq, Azərbaycan Respublikasında informasiya təhlükəsizliyinin təmin edilməsi üçün normativ hüquqi bazanın yaradılması və təkmilləşdirilməsi məsələsi daim diqqət mərkəzində saxlanılır. Azərbaycan Prezidenti "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nı təsdiq edib. Bu strategiya ölkənin informasiya məkanının təhdidlərdən qorunması, informasiya təhlükəsizliyi sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi və bu sahədə qarşıda duran vəzifələrin müəyyən edilməsi məqsədilə qəbul edilib".

O, kibercinayətkarlıqla daha effektiv mübarizə aparmaq üçün ölkələr arasında təcrübə mübadiləsinin əhəmiyyətini xüsusi vurğulayıb.

"BRICS və tərəfdaş ölkələr - dünyanın əksəriyyətini təşkil edən dövlətlər arasında dialoqun inkişafı üçün uğurlu platforma" mövzusunda keçirilən plenar iclasda da çıxış edən E.Mirbəşiroğlu dünyada çoxqütblü sisteminin yaranması prosesinin dönməz xarakter aldığını, belə dünya nizamı çərçivəsində milli dövlətlərin öz maraqlarını və təhlükəsizliklərini daha etibarlı şəkildə təmin etmək imkanına sahib olacaqlarını söyləyib. O xüsusi olaraq qeyd edib ki, Azərbaycan Respublikası hər zaman xalqlar və dövlətlər arasında dialoq mühitinin yaradılması və inkişaf etdirilməsinin tərəfdarıdır, öz təşəbbüsləri ilə buna dəstək olur.

YAP Təftiş Komissiyası sədrinin müavini Nizami Səfərov isə forumun "Bölünməz və bərabər təhlükəsizlik həqiqi və davamlı beynəlxalq sülhün başlıca prinsipidir" mövzusunda plenar iclasında çıxış edərək bəzi dövlətlərin təhlükəsizliyinin digər dövlətlərin təhlükəsizliyi hesabına təmin edilməsinin yolverilməz olduğunu, bu prinsipin bütün səviyyələrdə, o cümlədən regional kontekstdə tətbiqinin əhəmiyyətini vurğulayıb. Onun sözlərinə görə, qarşıdurma siyasətindən uzaqlaşmaq, gərginliyin azaldılması, uzun müddət ərzində yığılıb qalmış problemlərin həlli dünyanın müxtəlif regionlarında, o cümlədən Cənubi Qafqazda yerləşən ölkələrin maraqlarına uyğundur.

"Bu gün bizim Azərbaycanla Ermənistan arasında münasibətlərdə mövcud olan, demək olar ki, bütün problemlərin həllini normal diplomatik kanallara çəkmək üçün unikal imkanımız var. Dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası prosesinin başlanması, sülh müqaviləsinin hazırlanması baxımından müvafiq strukturlar vasitəsilə təmasların olması, Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının açılması və iqtisadi əlaqələrin bərpası üzrə üçtərəfli işçi qrupunun iclaslarının keçirilməsi onu göstərir ki, yalnız öz maraqlarını güdən bəzi regiondankənar oyunçuların dövlət sərhədlərinin müəyyənləşdirilməsinə cəlb etmədən birbaşa qarşılıqlı fəaliyyət çoxdan gözlənilən sülhün bərqərar olması və uzunmüddətli beynəlxalq təhlükəsizlik rejiminin formalaşdırılması üçün optimal variantdır", - deyən N.Səfərov Azərbaycanın tarixi qələbəsi sayəsində Cənubi Qafqazda dayanıqlı sülh və təhlükəsizliyin bərqərar olması üçün əlverişli şəraitin yarandığını vurğulayıb.

Forum çərçivəsində "Millətlərin azadlığı naminə!" - neokolonializmin müasir təcrübəsi ilə mübarizə tərəfdarlarının Forumunun Daimi Komitəsinin ilk əyani iclasında iştirak edən Nizami Səfərov yeni yaradılan Komitənin və onun nəzdindəki ekspert şurasının tərkibinə üzv seçilib.

Daimi Komitə iclasında müstəmləkəçilik dövründə bir sıra xalqlara qarşı törədilmiş cinayətlərə hüquqi qiymət verilməsi və onlara kompensasiya ödənilməsi məsələləri müzakirə edilib, müasir dövrdə dekolonizasiya probleminin hüquqi platformada həll edilməsinin vacibliyi xüsusi vurğulanıb.

# "Ermənistanın istənilən təxribatına qarşı yenə cavab verəcək "dəmir yumruğ"umuz var"

## Aydın Mirzəzadə: "Bir neçə yüz milyon dollarlıq hərbi yardım göstərmək nə Ermənistanı güclü edəcək, nə də Azərbaycanın mövqeyini zəifl ədəcək"

***Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Fransanın Ermənistanı silahlandırmasından, Ermənistan yeni müharibəyə cəhd edərsə onları nələrin gözləyəcəyindən, Fransanın bu addımının sülh gündəliyinə necə təsir edəcəyindən və Azərbaycan Ordusu üçün hansı yeni silahların alına biləcəyindən danışıb.***

***-Aydın müəllim, məlum olduğu kimi, Fransa ilə Ermənistan arasında "Caesar" özüyeriyən artilleriya qurğularının alqı-satqısı barədə kontrakt imzalanıb. Fransanın Ermənistana öldürücü və hücum təyinatlı artilleriya qurğuları satmaqda məqsədi nədir?***

-Fransada müəyyən nüfuza malik olan erməni icması var. Hakimiyyət seçkilərdə həmin icmanın səslərini həmişə öz yanında görmək istəyir. Bununla yanaşı, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü olsa da, son illərdə apardığı siyasətlə siyasi nüfuzunun ciddi surətdə aşağı düşməsinə səbəb olub. Ermənistana kömək etməklə guya bir qüvvə olduğunu, dünyanın gündəmində olan hansısa məsələyə təsir etmək gücündə olduğunu göstərmək istəyir. Onların Ermənistana vaxtaşırı ayırdıqları müəyyən hərbi avadanlıqlar və köməkliklər əslində görüntü xarakteri daşıyır. Ona görə ki, ordu milyardlarla dollar vəsait tələb edir. Fransanın etdiyi isə onun cüzi bir hissəsidir. Eyni zamanda, Fransanın Ermənistana etdikləri heç də Ermənistanın yenidən Azərbaycan torpaqlarının işğalına səbəb ola bilməz. Azərbaycan güclüdür və Silahlı Qüvvələrimiz daim hazır vəziyyətdədir. Ermənistanın istənilən təxribatına qarşı yenə cavab verəcək "dəmir yumruğ"umuz var. Digər tərəfdən, Fransa Azərbaycana qarşı apardığı təxribat xarakterli tədbirlərə bu addımlarını da qatmaq istəyir. Makron və onun apardığı makronizm siyasəti Fransanın özünün imicinə ciddi zərbə vurur. Bir neçə yüz milyon dollarlıq hərbi yardım göstərmək nə Ermənistanı güclü edəcək, nə də Azərbaycanın mövqeyini zəifl ədəcək.

***-Fransanın bu addımı Ermənistan rəhbərliyinin revanşizm siyasətini dəstəkləmək və siyasi məsuliyyətsizlik olmaqla bərabər yeni müharibəyə aparan yoldur. Ermənistan yeni müharibə cəhd edərsə, onları nələr gözləyir?***

-Ermənistan cəhd edərsə, cavabını alacaq. Bu ölkənin indiki rəhbərliyi həm 44 günlük Vətən müharibəsində, həm də bir günlük lokal xarakterli antiterror tədbirləri zamanı Azərbaycanın gücünü kifayət qədər görüb. Heç də təsadüfi deyil ki, bu gün Ermənistan rəhbərliyi 12 kilomter məsafədə Azərbaycan-Ermənistan sərhədinin müəyyənləşməsini özünün siyasi qələbəsi kimi qələmə verməyə çalışır. Ermənistanın Azərbaycana qarşı güc nümayiş etdirməsi üçün əlində imkanlar yoxdur. Ermənsitanda həm iqtidarda, həm də müxalifətdə revanşizm ideyaları ilə yaşayanlar var. Amma bugünki reallıq ondan ibarətdir ki, hüququnu və özünü qoruya bilən Azərbaycan var. Azərbaycanın istənilən revanşizmə cavab verəcək kifayət qədər gücü var.

***-Makron hökumətinin bu addımları Azərbaycan-Ermənistan arasında olan sülh gündəliyinə necə təsir göstərəcək?***

-Xoşagəlməz hadisədir ki, Fransa Azərbaycan və Ermənistan arasında gedən sülh danışıqlarına maksimum zərbə vurmağa çalışır. Prosesi ləngitməyə, Azərbaycanı öz milli maraqlarından çəkindirməyə çalışır. Amma bu alınmayacaq. Zaman və şərait başqadır. Azərbaycan COP-29 kimi tarixə düşəcək tədbir keçirməyə hazırlaşır. Azərbaycan Silahlı Qüvvələri özünün modernliyinə, hərbi təcrübəsinə görə dünyanın ən nüfuzlu orduları sırasındadır. Bu baxımdan, Fransanın etdikləri sadəcə olaraq siyasi təxribatdan başqa şey deyil. Vaxtaşırı Fransa və Ermənistan nümayəndə heyətlərinin bir-birilərinə səfəri, Fransanın Ermənistana hər hansı hərbi yardım göstərməsi xəbərləri ancaq publikaya işləyən məsələdir. Eşitmirik ki, hansısa Fransa şirkəti Ermənistanda 100 milyon dollar dəyərində olan zavod tiksin və ya Fransa hökuməti Ermənistanın hansısa sosial proqramına dəstək üçün 200 milyon dollar vəsait köçürsün. Kimsə deyə bilərmi Fransa Ermənistanda on minlərlə iş yeri yaradacaq iqtisadi layihəyə dəstək verib. Bunların heç biri yoxdur. Ancaq hərbi sahədə əməkdaşlıqdır və bu da regionda vəziyyəti gərginləşdirməkdən ibarətdir. Azərbaycan-Ermənistan vasitəçisiz danışıqlar aparır və müəyyən məsələdə razılığa gəlir. Fransa isə özünü üçüncü danışıq tərəfdaşı kimi ortaya qoymağa çalışır. Bu isə onlarda çox uğursuz alınır.



***-2024-cü ilin büdcəsinə edilən dəyişiklikdə əsas istiqamətlərdən biri də ordumuzun hərbi sursat və maddi-texniki təchizatının müasirləşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi üçün əlavə maliyyə təminatının yaradılmasıdır. Qarşıdakı dövrdə yeni silahların alınması gözlənilirmi?***

-Azərbaycan hökuməti silahlı qüvvələrimizi həmişə müasir tələblərə uyğun şəkildə saxlamağa çalışır. Müharibə bitsə də, təxribatlar ehtimalı, risklər həmişə var. Dünya risklər dövrüdür və həmişə risklərə hazır olmalıyıq. Bu hazırlıq düşünülmüş daxili və xarici siyasətdir. Hazırlıq iqtisadiyyatın gücləndirilməsidir. Vacib faktorlardan biri silahlı qüvvələrin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması və onun ən müasir silahlarla təchiz edilməsidir. Ordumuz üçün ən müasir silahlar alınır. Təsadüfi deyil ki, həm 44 günlük Vətən müharibəsində, həm də bir günlük lokal xarakterli antiterror tədbirlərində Azərbaycan ən müasir silahlardan istifadə etdi. Silahlar daim yenilənir, modernləşir. Hər ilin büdcəsində müdafiə sahəsinə, silah alınmasına əhəmiyyətli vəsait ayrılır. Həmçinin, Müdafiə Sənayesi Nazirliyi var. Onun istehsal etdiyi silahlar, sursatlar, hərbi ləvazimatlar ordumuzun təmin edilməsində böyük rol oynayır. Eyni zamanda, Azərbaycan dünya silah bazarında da fəal iştirakçıdır.

***Anar Kəlbiyev***

20_27 IYUl-QARA.qxd 6/20/2024 11:21 PM Page 8



# Təhsil Nazirliyindən milyonluq tender udan şirkətlə bağlı ilginc iddia

## “Şəms-95”-in direktoru müqaviləsiz işçi çalışdırıb? - Dövlət Əmək Müfəttişliyinin külli miqdarda cərimə yazmasının sirri...

***Dövlət Əmək Müfəttişliyi Xidməti tenderlərdə fəal iştirak edən ”Şəms-95” MMC-nin direktoru Qasım Qasımovu cərimələyib.***

Yerli KİV-də yayılan məlumatdan belə aydın olur ki, Qasım Qasımova İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsi ilə cərimə yazılıb.

Həmin maddə Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi ilə bağlıdır. “Qaynarinfo”nun xəbərinə görə, irəli sürülən ittihamdan belə çıxır ki, Qasım Qasımov Əmək Məcəlləsini pozub. O, müqaviləsiz işçilər çalışdırıb.

Bu inzibati xətaya görə fiziki şəxslərin 1000 manatdan 2000 manatadək məbləğdə, vəzifəli şəxslərin 3000 manatdan 5000 manatadək məbləğdə, hüquqi şəxslərin isə 20 000 manatdan 25 000 manatadək məbləğdə cərimə olunmasını nəzərdə tutur.

Qasım Qasımov dövlət xidmətinin qərarı ilə razılaşmayıb. O, qərardan məhkəməyə şikayət ərizəsi ilə müraciət edib. Şirkət rəhbərinin şikayətinə Xətai Rayon Məhkəməsində baxılacaq. Sülhanə Hacıyeva iş üzrə hakim təyin edilib.

Qasım Qasımovun rəhbəri olduğu ”Şəms-95” MMC 17 fevral 1995-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 10 manatdır. Şirkətin qanuni təmsilçisi Qasım Qasımovun özüdür. Belə ki, hüquqi ünvanı Bakı şəhəri Xətai rayonu, Neapol küçəsi, ev 23, mənzil 37 olan MMC-nin qanuni təmsilçisi Qasımov Qasım Məmməd oğlu göstərilir.

Ötən il isə valyuta.az saytı yazıb ki, “Şəms-95” MMC əslində 1995-ci ildən fəaliyyət göstərsə də,şirkətin əlaqə telefonları və veb-səhifəsi də yoxdur. “Bəzi resurslarda “Şəms-95” MMC-nin adı alqı-satqı firması kimi qeyd edilib. Yeri gəlmişkən, şirkət 10 noyabr 2022-ci il tarixdə MMC-yə çevrilib. Ona qədər “Şəms-95” Firması kimi fəaliyyət göstərib" - sözügedən sayt bildirirdi.

”Şəms-95” MMC tikinti sektorunda fəaliyyət göstərir. Şirkət təkcə ötən il 43 850 632, 42 manatlıq satınalma müqaviləsi imzalayıb. Müqavilələr Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti və Elm və Təhsil Nazirliyinin Təsərrüfat Hesablı Əsaslı Tikinti və Təchizat İdarəsi ilə bağlanıb. Bununla bağlı KİV-dəki məlumatlarda o da vurğulanırdı ki, sözügedən tenderin şərtlərində hansı təhsil müəssisələrinin təmir ediləcəyi barədə məlumat yoxdur.

Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti ilə bağlanan və maliyyə dəyəri 42 491 850,28 manat olan müqavilədə Ağdam rayonu, Kəngərli kənd yaşayış məntəqəsində 2, 3, 4, 5 otaqlı fərdi yaşayış evlərinin tikintisi, Elm və Təhsil Nazirliyinin (ETN) Təsərrüfat Hesablı Əsaslı Tikinti və Təchizat İdarəsi ilə bağlanan və maliyyə dəyəri 1 358 782,14 manat olan müqavilədə isə Regionlarda bir sıra təhsil müəssisələrində cari təmir işlərinin həyata keçirilməsi nəzərdə tutulur.

Onu da deyək ki, adıçəkilən şirkətlə bağlı ötən il ölkə mediasında bir sıra iddialar ortaya atılıb. “Gündemxeber” saytı iddia edib ki,şirkətin Beyləqan rayonunda inşa etdiyi 4 məktəbin asfaltlanması əməliyyatında yüz minlərlə manat vəsait mənimsənilib. Belə ki, şirkət Xalac və Kəbirli qəsəbələrində inşa etdirdiyi məktəblərin həyətyanı sahələrini asfaltlayıb. Qoyulan asfaltın qiymətini “Şəms-95”MMC şirkəti sənədləşdirilmədə hər kvadratmetrə görə 14 manat yazsa da, əslində bu məbləğ 7 manat olub.

O da iddia olunub ki, şirkətin inşa etdiyi bütün məktəblərdə asfaltlama ucuz qiymətə və standartlara uyğun olmayan şəkildə həyata keçirilib, bütün bunları isə nələrin müqabilində örtbasdır etməyi bacarıb.




Lakin “Şəms-95” MMC-dən həmin iddialara heç bir münasibət bildirilməyib.

İndi isə Emin Əmrullayevin rəhbəri olduğu nazirlikdən - ETN-dən böyük məbləğdə tender udan şirkəti, daha doğrusu, Dövlət Əmək Müfəttişliyinin müqaviləsiz işçi çalışdırdığına görə cərimələdiyi ortaya çıxır. Qarşı tərəf bu məsələ ictimailəşdikdən sonra da mediada yazılanlara reaksiya bildirmək ehtiyacı hiss eləməyib. Bununla belə, dövlət qurumunun cərimələməsindən sonra məhkəməyə üz tutmaqla bu qərarla razılaşmadığını ortaya qoyub.

Məhkəmənin hansı tərəfi haqlı hesab edəcəyi isə yəqin ki, yaxın vaxtlarda məlum olacaq.

***Toğrul Əliyev***




# COP29-la bağlı müraciətlərin qəbuluna başlanılır

***Cari ilin 11-22 noyabr tarixlərində Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının (COP29) uğurlu və müsbət təsirlərinin təmin edilməsi məqsədilə tədbirə ev sahibliyi edən ölkəmiz tərəfindən aktiv hazırlıq işləri davam etdirilir.***

COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən “Unikal”a verilən xəbərə görə, xarici ölkələrin nümayəndə heyətlərinin konfransın Mavi Zonasında rəsmi müzakirələrdə iştirakının təmin edilməsi ilə yanaşı bu mötəbər tədbirin bir hissəsi olmaq, tərəfdaşlıq, sponsorluq və sərgiləmə imkanlarını dəyərləndirmək istəyən müxtəlif təşkilatların da maraqları nəzərə alınaraq COP29 çərçivəsində təşkil ediləcək Yaşıl Zona üzrə müraciətlərin qəbulu açıq elan edilir.

COP29 Sədrliyi tərəfindən təşkil olunan Yaşıl Zona dünyanın ən mühüm iqlim konfransını ziyarət edəcək qonaqların bu istiqamətdə fəaliyyətini genişləndirmək və iqlim dəyişmələrində individual dialoqu təşviq etmək üçün fəaliyyət göstərəcək. Yaşıl Zona öz fəaliyyətində iqlim dəyişmələri ilə mübarizə addımları sərgiləyən və bu istiqamətdə ixtisaslaşan qurumlara öz təcrübələrini, bu sahədə innovativ məhsul və həll yollarını paylaşmaqla qlobal auditoriya qarşısında öhdəliklərinin nümayişinə və eləcə də dövlət və özəl qurumlar arasında əməkdaşlığa şərait yaradan platforma rolunu oynayacaq. Ərazi dövlət və özəl sektorlar, hökumətlər, BMT-nin ixtisaslaşmış qurumları, hökumətlərarası təşkilatlar, QHT-lər, akademik dairələr, incəsənət xadimləri və vətəndaş cəmiyyətinin müxtəlif maraqlı tərəflərini vahid məqsəd ətrafında bir araya gətirəcək məkan kimi çıxış edəcək.

Qlobal iqlim fəaliyyəti təşəbbüslərini inkişaf etdirmək və bu istiqamətdə real həlləri təşviq etmək məqsədi ilə interaktiv sərgilər, konfranslar, seminarlar, panel müzakirələri, eləcə də yaradıcı incəsənət instalyasiyaları, mədəni tədbirlər və çıxışların yer alacağı bu məkan noyabr ayında iqlim fəaliyyəti üçün əsl dinamik mərkəzə çevriləcək. Bakı Stadionu ətrafında Mavi Zonaya çox qısa məsafədə yerləşəcək bu ərazi öz miqyası və dizaynı ilə hər kəsin birgə fəaliyyəti üçün əlçatan və inklüziv şərait təmin edəcək və iqlim problemlərinin həllində maraqlı olan geniş ictimaiyyət üçün açıq olacaq.

Bütün bunlar nəzərə alınaraq, maraqlı təşkilatların Yaşıl Zonadan yüksək fayda əldə etməsi və buradakı imkanlardan səmərəli şəkildə yararlanması, eyni zamanda Yaşıl Zona üzrə fəaliyyətin operativ və keyfiyyətli idarə olunması məqsədilə yaradılan www.cop29greenzone.com onlayn platforması istifadəyə verilib. Təşkilat və qurumlar müxtəlif fərqli tərəfdaşlıq, konfrans və sərgi formatında iştirakçılıq təklifləri ilə bağlı məlumatları portal vasitəsilə rahatlıqla əldə edə bilərlər. Portal potensial tərəfdaşların hədəflərinə uyğun hər bir məlumatı, Yaşıl zonada qurulacaq pavilyonlar və COP29 Sədrliyinin iqlim fəaliyyəti təşəbbüslərini özündə əks etdirir, eyni zamanda innovativ yanaşma və texnologiyaların nümayiş etdirilməsi üçün geniş sərgi məkanında müxtəlif texniki parametrlərə uyğun yerlərin ayrılmasına da şərait yaradır.

Yaşıl Zonada təmsil olunmaq istəyən maraqlı tərəflər qeyd edilən platforma //www.cop29greenzone.com vasitəsilə rəsmi müraciətlərini təqdim edə bilərlər. Qeyd edək ki, müaraciətlərin qəbulu 10 iyul 2024-cü il tarixinədək davam edəcək. Yaşıl Zona ilə bağlı yarana biləcək sualların cavablandırılması üçün isə iştirak etmək istəyənlər GreenZoneSales@dmgeventsglobal.com elektron ünvanına öz sorğularını yönləndirə bilərlər.

20_27 IYUI-QARA.qxd 6/20/2024 11:22 PM Page 9





## “Azərbaycan bu BMT qətnamələrinin qəbulunda əsas rol oynadı” - Nazir

***Qoşulmama Hərəkatına sədrliyi zamanı Azərbaycan pandemiyaya qarşı qlobal fəaliyyətə təkan verdi və bütün ölkələrin vaksinlərə ədalətli çıxışı ilə bağlı BMT qətnamələrinin qəbulunda mühüm rol oynadı. 2023-cü ildə biz həm də pandemiyadan sonrakı bərpa ilə bağlı zirvə toplantısına ev sahibliyi etdik, orada Prezidentimiz Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərin pandemiyadan sonrakı bərpasına dəstək vermək üçün iki qlobal çağırış elan etdi.***

“Unikal” xəbər verir ki, bu sözləri COP29-un prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev iyunun 20-də Bakıda keçirilən Qoşulmama Hərəkatı Gənclər Təşkilatının İqlim Fəaliyyəti Forumunda çıxışı zamanı deyib. Nazir bildirib ki, COVID-19 ilə iqlim dəyişikliyinə qarşı birgə mübarizəmiz arasında paralellər olduqca əhəmiyyətlidir. Bu, bizə ortaq çağırışa cavab vermək üçün dünyanı bir araya gətirməyin və cavabımızın hər bir ölkənin fərdi şəraitini nəzərə almasını təmin etməyin vacibliyini göstərdi.

## Azərbaycanda 12 nəfəri gün vurdu

***Respublika Təcili və Təxirəsalınmaz Tibbi Mərkəzinə günvurma ilə bağlı iyunun 1-dən bu günə qədər ümumilikdə 12 nəfərin müraciəti qeydə alınıb.***

“Unikal” xəbər verir ki, bu barədə TƏBİB-dən məlumat verilib.

Qeyd olunub ki, onlardan 10 nəfərə yerində yardım göstərilib, digər iki şəxs isə hospitalizasiya olunub.

## Mayda 3 mindən çox şəxsə pensiya təyin olunub

***2024-cü ilin may ayı ərzində 3,2 mindən çox şəxsə proaktiv qaydada yaşa, əlilliyə və ailə başçısını itirməyə görə pensiya təyinatı aparılıb.***

Bu barədə “Unikal”a Dövlət Sosial Müdafiə Fondundan xəbər verilib. Bildirilib ki, onların 57,1%-ni kişilər, 42,9%-ni isə qadınlar təşkil edib.

## Bayramda 17 nəfər zəhərlənib

***Bayram günlərində (15-19 iyun) Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə zəhərlənmə səbəbilə 17 nəfər qəbul edilib.***

Bu barədə Kliniki Tibbi Mərkəzin mətbuat katibi Ruzbeh Məmməd məlumat verib. Onun sözlərinə görə, şöbəyə qəbul edilən şəxslər dərman, ilan sancması və sirkədən zəhərlənən şəxslərdir.

R.Məmməd bildirib ki, həmin müddətdə ölüm halı qeydə alınmayıb.

# Fərhad Qəribovun adı yeni qalmaqalda

## Sabiqlərin izi ilə: keçmiş deputatın oğlu kredit borcunu ödəmir?

***”Unikal” qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. ”Sabiqlərin izi ilə” adlandırdığımız həmin silsilədən bugünkü yazımız Milli Məclisin sabiq üzvü Fərhad Qəribov haqqındadır.***

Bu günlərdə media keçmiş millət vəkilinin oğlu Rəşad Qəribova məxsus ”Elz-Line LTD” MMC ilə ”Debüt” Kommersiya Bankı arasında məhkəmə çəkişməsindən yazır və bununla da bir müddətdir adı mətbuat tərəfindən unudulan sabiq deputat-oliqarx F.Qəribov yenidən yada düşüb. Belə ki, Qaynarinfo-nun əldə etdiyi məlumata görə, Rəşad Qəribov birinci məhkəmə instansiyasında uduzub. O, qərardan apellyasiya şikayəti verib. Şikayətə Bakı Apellyasiya Məhkəməsində baxılacaq. Vüsalə Baxışova iş üzrə hakim təyin edilib.

”Debüt” Kommersiya Bankı kredit müqaviləsinə dair mübahisələrə görə Bakı Kommersiya Məhkəməsində ”Elz-Line LTD” MMC-yə qarşı iddia qaldırmışdı. İddiaçılardan biri də Əmanətlərin Sığortalanması Fondu idi.Fondun bu işdə iddiaçı kimi çıxış etməsi təsadüfi deyil. Məsələ burasındadır ki, ”Debüt” Kommersiya Bankı vaxtilə Fərhad Qəribova məxsus olub. 2024-cü ildən Əmanətlərin Sığortalanması Fondunun icraçı direktoru Tural Piriyev banka rəhbərlik etməyə başlayıb. Bu fakt bankın Fərhad Qəribovun nəzarətindən çıxması kimi izah edilir.

Beləliklə, Fərhad Qəribov ”Debüt”ü əldən verdikdən sonra ləğv prosesində olan bank problemli kreditlərlə bağlı hərəkətə keçib.

İddialara görə, ilk addım daha böyük məbləğli kreditlərlə bağlı atılır ki, bu sırada Rəşad Qəribovun şirkəti ön sıralarda gəlir.

Rəşad Qəribov vaxtilə ”Debüt” Kommersiya Bankının Müşahidə Şurasının sədri olub. O, 2020-ci il parlament seçkilərində 57 saylı Kürdəmir seçki dairəsindən namizəd olsa da, uğur qazana bilməyib. Hazırda həmin dairəni parlamentdə Əminə Ağazadə təmsil edir.

“Unikal”ın araşdırması zamanı o da aydınlaşıb ki, R.Qəribovun adı vaxtilə “Debutbank”la bağlı məhkəmə işində də hallanb. Çoxdan bağlanmış bankın Müşahidə Şurasının sədri olmuş R.Qəribovun dələduzluqla üzləşdiyi deyilirdi. Bunu onun özü də təsdiqləmiş və bildirmişdi ki, Emin Əmirov adlı şəxs onun 14 milyon manat pulunu mənimsəyib.

Emin Əmirov isə iddia edirdi ki, deputatın oğlundan cəmi 4 milyon alıb və onu artıqlaması ilə qaytarıb.

Deputat oğlunun fiqurant olduğu məhkəmədə o da məlum olmuşdu ki, E.Əmirov müğənnilərdən biri ilə yaxın münasibətdə olub və mənimsənilən pulun 280 min manatı ilə həmin müğənniyə mənzil alıb.

Fərhad Qəribov isə üçüncü çağırış Milli Məclisin deputatı olub. O, parlamentdə 57 saylı Kürdəmir seçki dairəsindən mandat qazanıb.

F.Qəribov deputat mandatı qazandıqdan sonra öz biznes obyektlərini övladlarının adına keçirmişdi. Millət vəkili olduğu dönəmdə o, deputatlar arasında ən böyük biznesə sahib olanlardan sayılırdı. Ata Qəribovun paytaxtda fəaliyyət göstərən “Çıraq Plaza” oteli, “Şəki” restoranlar şəbəkəsi, ticarət obyektləri və mebel sex-



lərinin varlığından yazan yerli KİV həmçinin qeyd edirdi ki, “Debütbank” müflisləşdikdən sonra eks-deputatın biznes şəbəkəsinin bir qismi əlindən çıxıb.

F.Qəribovun millət vəkili mandatını itirməsinin ardından isə biznesinin daha da zəiflədiyinə dair iddialar dolaşır.

Yeri gəlmişkən, “Debütbank” işi də vaxtilə ölkə mediasında aparıcı mövzulardan olub. 2010-cu ildə Mərkəzi Bank ”Debütbank” ASC-yə verilmiş bank lisenziyasını geri çağırıb. Bu, bankın fəaliyyətində yol verilmiş ciddi pozuntularla bağlı idi. Baş prokurorluğun 2014-cü ildə yaydığı rəsmi məlumatda isə deyilirdi ki, adıçəkilən bank 2006-2008-ci illərdə Sahibkarlığa Kömək Milli Fondunun müvəkkil kredit təşkilatı kimi fəaliyyət göstərərkən fonddan ayrılmış 3 milyon manata yaxın güzəştli kredit bankın vəzifəli şəxsləri tərəfindən ayrı-ayrı hüquqi və fiziki şəxslərdən saxta biznes planları, hesabat sənədləri qəbul etməklə mənimsənilib.

KİV isə yazırdı ki, Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kreditlərinin mənimsənilməsi üzrə Fərhad Qəribovun oğlu Elnur Qəribov istintaqa cəlb olunub, dindirilib, onun ölkədən çıxışına ”stop” qoyulub. Bəzi məlumatlara görə o vaxt deputat olan Qəribov özü də mənimsəmə işi ilə bağlı istintaqa ifadə verib, baş verənlərdən xəbəri olmadığını iddia edib.

Bundan başqa, Azərbaycan Beynəlxalq Bankının keçmiş sədri Cahangir Hacıyevin 2015-ci ilin dekabrındakı həbsindən sonra Fərhad Qəribovun oğlunun da həbsi xəbəri yayılmışdı. Lakin o bildirmişdi ki, bu xəbərlər yalandır. F.Qəribovun sözlərinə görə, oğlu Elnur Qəribov 8 il bundan əvvəl Cahangir Hacıyevlə şərik iş qurubmuş. Deputat bildirib ki, sonradan onların işi alınmayıb.”O zaman Cahangir Hacıyev oğlumu aldatdı və onların işi alınmadı. Onun barəsində cinayət işi başlanıb. İstintaq zamanı onunla birgə işləyən və vaxtilə şərik olan şəxsləri də çağırıb sorğu-sual edirlər. Bu məqsədlə Elnur Qəribovdan da bu şəriklik barədə soruşublar”, - F.Qəribov jurnalistlərə deyib.

Ümumiyyətlə, sabiq deputat və yaxınlarının adı bir neçə il əvvələdək ən müxtəlif qalmaqallarda mütəmadi şəkildə hallanırdı. Hətta bunların arasında qətl işi də vardı. Belə ki, 2011-ci ildə Kürdəmirdəki Şirə Zavodunun qətlə yetirilən mühasibi Nadir Mehdiyevin oğlu Kərim Mehdiyev keçmiş millət vəkilinin başqa bir oğlu Zöhrab Qəribovla bağlı ittihamlar irəli sürmüşdü. K.Mehdiyev iddia edirdi ki, atasını itkin düşməmişdən əvvəl Zöhrab Qəribovun maşınına minən görüblər. Qeyd edək ki, bu zavod da Fərhad Qəribova məxsus olub.

2016-cı ildə isə hazırda fəaliyyəti dayandırılmış virtualaz.org saytı 2005-2015-ci illərdə Milli Məclisin üzvü olmuş oliqarx və eks-bankir Fərhad Qəribovun Tiflis kazinolarının teztez qonağı olduğunu yazmış, hətta həmin kazinoların birində 270 min dollar uduzduğunu bildirmiş, eyni zamanda həmin anları özündə əks etdirən sensasion videokadrları yaymışdı.

Lakin maraqlıdır ki, özü və ətrafı barəsində mediada bu məzmunda çoxsaylı iddia və ittihamların yer almasına baxmayaraq sabiq deputat ünvanına deyilənlərin çoxunu cavabsız qoyub. Bu səbəbdən də həmin iddia və ittihamlardan hansında həqiqət payının nə qədər olduğunu söyləmək çətindir...

***Sənan Mirzə***

20_27 IYUI-QARA.qxd 6/20/2024 11:22 PM Page 10



# Bəzi məmurların mənzil oyunu...

## Həftənin sualı: Mənzil Məcəlləsinin vacib müddəalarından birinin işləməsinə kimlər və niyə mane olurlar?

***Adı var, özü yox... Söhbət Mənzil Məcəlləsinə əsasən, yaşayış sahələrinin sosial kirayə müqaviləsi əsasında vətəndaşlara verilməsindən gedir...***

Millət vəkili Vüqar Bayramov mövzu ilə bağlı bu günlərdə "Xəzər-xəbər"ə deyib ki, qanunvericiliyə əsasən, yerli icra hakimiyyəti orqanları sərəncamında olan mənzilləri sosisal müdafiə və sosial təminata daha çox ehtiyacı olan eləcə də mənzili olmayan vətəndaşlara təklif etməlidirlər. Bu zaman dövlət yaşayış fondunun yaşayış sahələri sosial kirayə müqaviləsi əsasında vətəndaşlara təqdim olunmalıdır.

Millət vəkili bildirib ki, həmin mənzillər vətəndaşlara ya pulsuz, ya da kifayət qədər aşağı ödənişlə və Asan imzaya malik olmaqla özünə elektron kabinet yaratmalıdır. Kabinet yaradan zaman o özü ilə bağlı məlumatları elektron daxil edə biləcək. Bunu müraciət başlayan zaman ASAN xidmətə müraciət etməklə qısa zaman həll etmək olar. Bu prosesi keçən və müsbət cavab alan vətəndaş fonda şəxsiyyət vəsiqəsinin surəti (onunla birgə kirayə götürüləcək yaşayış sahəsində yaşayacaq ailə üzvləri varsa, həmçinin onların şəxsiyyət vəsiqələrinin surətləri) və gəlirlərini təsdiq edən sənədləri təqdim etməlidir. Qaydalara əsasən, rəsmi əmək müqaviləsi olmayan, amma fərdi sahibkarlıqla məşğul olan vətəndaşlar da evlərə müraciət edə biləcək. Bu zaman onlar Sahibkarın vergi orqanlarında qeydiyyatdan keçdiyi barədə şəhadətnaməunvericiliyə uyğun qaydada kirayəçinin mülkiyyətinə veriləcəyi də bildirilirdi.

Üstəlik, vurğulanırdı ki, ən geci 2020-ci ilin ilk ayından etibarən yaşayış sahələrinin sosial kirayə müqaviləsi əsasında vətəndaşlara verilməsinə başlanacaq.

Bir sözlə, belə aydın olurdu ki, layihənin icrası üçün bütün hazırlıqlar tamamlanıb və minlərlə insan sosial kirayə müqaviləsi ilə mənzil sahibi ola biləcək.

Lakin sən saydığını say, gör bəzi bürokratlarımız nə sayırlar...

"Sosial kirayə" muştuluğunun üzərindən hardasa 4 il, hətta daha çox vaxt keçib, lakin Mənzil Məcəlləsinin məlum tələbinin hələ də yerinə yetirilmədiyi aydın şəkildə göz önündədir. İqtisadçı ekspert Vüqar Bayramovla razılaşmamaq



təklif olunmalıdır.Bu fəaliyyətləri isə icra hakimiyyəti yanında mənzil komissiyası həyata keçirməlidir.

Vüqar Bayramov Mənzil Məcəlləsində yer alan tələbin icrası ilə bağlı monitorinqin aparılmasını təklif edib.

Xatırladaq ki, Nazirlər Kabinetinin2019-cu ilin dekabrında qəbul etdiyi qərarla sosial kirayə müqavilələri əsasında verilən dövlət mənzil fondunun yaşayış sahələri üzrə normanı beynəlxalq standartlara uyğun olaraq 16 kvadratmetr müəyyənləşdirmişdi. Bu o demək idi ki, yerli icra hakimiyyəti orqanları sosial mənzil təklif edən zaman ailədə adambaşına 16 kvadratmetrdən mənzil sahəsi hesablamalıdırlar. Əgər hər hansı vətəndaşımızın bu növ sosial mənzillərə ehtiyacı varsa, o zaman yerli icra hakimiyyəti orqanlarında uçota alınmaq üçün müraciət edə bilər. Hətta bunun üçün hansı sənədlərin tələb olunduğuna da aydınlıq gətirilmişdi: müraciət edən şəxs elektron nin surətini və Vergi orqanları tərəfindən qəbul olunmuş gəlir vergisi və ya sadələşdirilmiş vergi bəyannaməsini təqdim etməlidirlər. Fond müraciətə müsbət cavab verdikdən sonra sonuncu mərhələ müqavilənin bağlanmasıdır.

Həmin vaxt sosial kirayə müqaviləsinin müddətsiz olacağı və növbəlilik prinsipi əsasında aparılacağı da açıqlanmışdı. O da qeyd edilirdi ki, növbədənkənar təmin ediləcək vətəndaşlar sırasına isə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan, habelə xroniki xəstəliklərə tutulmuş vətəndaşlar daxildir. Sosial kirayə müqaviləsi yerli icra hakimiyyəti orqanları ilə vətəndaşlar arasında müddətsiz olaraq bağlanır, qarşılıqlı razılıq əsasında və yaşayış yerini dəyişdikdə və s. hallarda ləğv edilə bilər. Satın almaq məqsədi ilə təklif ediləcək kirayə evlərin maksimum 25 il müddətinə təklif olunacağı və müqavilə öhdəlikləri bitdikdən sonra mənzilin qamümkün deyil: bu məsələ ilə bağlı monitorinqin aparılması vacibdir, lakin bir şərtlə - həmin monitorinq şəffaflıq və onbyektivlik prinsipinə əsaslansın, beləcə konkret şəkildə ortaya çıxsın ki, sosial kirayə müqaviləsi ilə vətəndaşlara mənzillərin verilməsini əngəlləyən kimlərdir? Üstəlik, bəzi məmurlar niyə Mənzil Məcəlləsinin sözügedən müddəasının icrasını həyata keçirməyə həvəsli deyillər?! Burada kimlərin və hansı maraqları var?

Deputatın keçirilməsini zəruri saydığı monitorinq yuxarıdakı suallara aydınlıq gətirəcəyi təqdirdə minlərlə insanın ev sahibi olmaq adına ümidlə, intizarla gözlədiyi sosial kirayə müqaviləsi ilə mənzillərin verilməsinə nəhayət ki, başlana bilər. Yox, əgər belə bir monitorinq formal xarakter daşıyacaqsa, onda bu problemin həllini daha dörd il (bəlkə, bundan da çox!) gözləməli olacağıq...

***Toğrul Əliyev***

# "COP29-da əsas prioritet iqlim dəyişikliyi problemlərinin həllidir" - Deputat



***COP29-da əsas prioritet iqlim dəyişikliyi problemlərinin həllinə sərmayə cəlb etməkdir.***

Bu sözləri COP29-un İqlim üzrə yüksək səviyyəli çempionu, Milli Məclisin deputatı Nigar Arpadarai "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantı çərçivəsində təşkil edilən "Elm, texnologiya və innovasiyanın rolu" mövzusunda panel müzakirələrində çıxışında deyib.

O qeyd edib ki, maliyyə riskləri sürətlə artır. "Biz yaşıl innovasiyaları dəstəkləmək üçün universitetlərimizi və tədqiqatçılarımızı inkişaf etdirməliyik. Bu, nəinki artımı stimullaşdıran, həm də seqreqasiyanı azaldan yeni məhsullar və proseslər yaratmaq üçün ən son texnologiyaların, ideyaların tətbiqi deməkdir. Azərbaycan milli və beynəlxalq səviyyədə əməkdaşlığı gücləndirməyə sadiqdir", - deyə N.Arpadarai əlavə edib.

# "Naxçıvanbank" bağlandı - Yeni təşkilat yaradıldı

***"Naxçıvanbank" ASC fəaliyyətini dayandırıb.***

"Unikal"ın məlumatına görə, bank adını və təşkilati-hüquqi formasını dəyişib. Belə ki, "Naxçıvanbank" "E-Kredit" MMC adı altında bank olmayan kredit təşkilatına (BOKT) çevrildiyini elan edib.

Ölkənin yeganə regional bankı olan "Naxçıvanbank" 2008-ci ildə yaradılıb, nizamnamə kapitalı 44 milyon manatdır. "Naxçıvanbank" ASC bu ilin ilk rübündə 12 milyon manata yaxın kiçilib. Bankın aktivləri 1 aprel 2024-cü il tarixinə 194,6 milyon manat təşkil edib. Bu isə 2023-ci ilin sonu ilə müqayisədə 11,6 milyon manat, yaxud 5,6% azdır.

Bankın əsas gəlir mənbəyi olan kredit portfeli isə bu dövrdə 27,6 milyon manat və ya 20,7% azalaraq 103,6 milyon manata enib. Ümumilikdə bankın öhdəlikləri təxminən 127,6 milyon manata bərabər olub ki, bu, ilin əvvəlinə nisbətən 16,6 milyon manat və ya 11,5% azalma deməkdir. Mətbuatda bankın bağlana biləcəyi barədə xəbərlər yayılmışdı.

Bir müddət əccəl Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov "Naxçıvan Bank"ın bağlana biləcəyi ilə bağlı xəbərlərə aydınlıq gətirib. Taleh Kazımov deyib ki, bankın hər hansı maliyyə problemi yoxdur.

"Balansı çox keyfiyyətlidir, maliyyə dayanıqlılığı ilə bağlı hər hansı problem yoxdur. Bankın kredit portfelinin bir hissəsi "Kapital Bank"a satılıb. Bankın fəaliyyəti ilə bağlı səhmdarlar tərəfindən qərar veriləcək. Bankın fəaliyyətini necə davam etdirəcəyi və ya BOKT-a çevriləcəyi səhmdarların qərarından asılı olacaq. Amma bunun ümumi maliyyə sabitliyinə hər hansı təsiri yoxdur. Bankın əmanətçilərinin sayı digər banklara nisbətən çox aşağıdır", - deyə AMB sədri əlavə edib.

# İrandan Azərbaycana narkotik keçirilməsinin qarşısı alındı

***İrandan Azərbaycana 11 kiloqradan çox narkotikin keçirilməsinin qarşısı alınıb.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Sərhəd Xidməti məlumat yayıb. Bildirilib ki, iyun ayının 18-də saat 15:30-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində ümumi çəkisi 11 kiloqram 350 qram narkotik vasitə marixuananın qaçaqmalçılıq yolu ilə İrandan Azərbaycana keçirilməsinin qarşısı alınıb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

20_27 IYUl-QARA.qxd 6/20/2024 11:22 PM Page 11



# Xankəndi-Şuşa-Laçın avtomobil yolunun tikintisi aparılır



***Azərbaycan Respublikası Prezidentinin tapşırıq və sərəncamları əsasında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərdə yol infrastrukturu layihələrinin icrası uğurla davam etdirilir.***

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən "Unikal"a verilən məlumata görə, bu istiqamətdə mühüm əhəmiyyətə malik yol infrastrukturu layihələrindən biri də inşası davam etdirilən Xankəndi-Şuşa-Laçın avtomobil yoludur. Avtomobil yolunun ümumi uzunluğu 34 kilometrdir. İkinci texniki dərəcəli yolda torpaq yatağının eni 15 metr, hərəkət zolağının hər birinin eni isə 3,75 metrdir.

Yol üzərində 2 körpü, 4 tunel, 73 ədəd müxəlif ölçülü və diametrli suötürücü boruların inşası nəzərdə tutulub. Uzunluğu 440 və 1100 metr olan birinci və üçüncü tunellərin giriş və çıxış portallarında, uzunluğu 540 metr olan ikinci tunelin çıxış portalında qazma işləri davam etdirilir. Eyni zamanda layihə üzrə kommunikasiya xətlərinin köçürülməsi işləri də həyata keçirilir.

"İnşaat Norma və Qaydaları"na uyğun, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin nəzarəti altında həyata keçirilən layihənin icrası tərtib olunmuş qrafikə uyğun və texnoloji ardıcıllığa riayət olunmaqla aparılır.

Tikinti işlərinin vaxtında yekunlaşdırılması üçün əraziyə lazımi sayda işçi qüvvəsi və texnika cəlb olunub.

Xankəndi-Şuşa-Laçın avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılır.

# "Oğurluğu şikayətçinin oğlu törədib" - DİN

***Quba sakininin evindən oğurluq edən şəxslərin 1 aya yaxındır, azadlıqda gəzməsi ilə bağlı iddialara rəsmi münasibət bildirilib.***

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən "Qafqazinfo"ya verilən açıqlamaya görə, rayon sakini Zeynal Tarverdiyevin müraciəti ilə bağlı Quba RPŞ-də araşdırmalar aparılıb: "Məlum olub ki, oğurluğu edən həmin şəxsin oğlu Tarverdiyev Zaur Zeynal oğludur. Zaur Tarverdiyev hazırda müvafiq xəstəxanada müalicə olunur. Müalicəsi tamamlandıqdan sonra həmin şəxsin barəsində qanunamüvafiq tədbirlərin görülməsi təmin olunacaq".

Qeyd edək ki, Zeynal Tarverdiyev evindən oğurluq edən şəxslərin bu günə qədər azadlıqda gəzdiyini iddia etmişdi.

# Taxıl sahələrinin 30 %-də biçin başa çatıb - Nazirlik

***Azərbaycanda payızlıq taxıl əkini sahələrinin 30 %-də biçin başa çatıb.***



"Unikal" bu barədə Kənd Təsərrüfatı Nazirliyində taxıl biçinin təşkili ilə bağlı yaradılmış operativ qərargaha istinadən xəbər verir.

Məlumata görə, bu günə qədər 303 549 hektar sahədə biçin aparılıb, sahələrdən ümumilikdə 920 344 ton məhsul yığılıb. Hazırda taxıl üzrə orta məhsuldarlıq 30,3 sentner təşkil edir. Ölkə üzrə arpa əkini sahələrinin 58,7 %-də, buğda sahələrinin 9,2 %-də biçin başa çatıb. Arpa üzrə orta məhsuldarlıq 29,6 sentner, buğda üzrə orta məhsuldarlıq isə 33,7 sentner təşkil edir.

İyunun 20-də biçin prosesinə 1572 kombayn cəlb olunub, bunlardan 626-sı "Aqroservis" ASC-nin, 946 kombayn isə fiziki və hüquqi şəxslərin mülkiyyətində olan kombaynlardır. Ümumilikdə bu mövsüm kütləvi biçin prosesində 1803 kombaynın iştirak edəcəyi gözlənilir.

# Bölgələrdəki tibb müəssisələrində narazılıq artıb

***Son günlər Azərbaycanın ayrı-ayrı şəhər və rayonlarında fəaliyyət göstərən tibb müəssisələrinin fəaliyyəti ilə bağlı şikayətlər intensivləşib. Üstəlik, bu şikayətlərin motivləri də müxtəlifdir - vətəndaşlar tibbi xidmətin keyfiyyətindən tutmuş natəmizliyədək fərqli mövzularda giley-güzar, narazılıq edirlər.***

Məsələn, Cəlilabad rayon sakini Lalə Qasımova (ad-soyad şərtidir - red.) üç gün öncə "Bakupost"a şikayətində deyib ki, "Lənkəran Müalicə və Diaqnostika Mərkəzində acınacaqlı vəziyyət hökm sürür. Xəstəxanın birinci mərtəbəsində su kranları sınıb, su yoxdur, ayaqyolu bərbad vəziyyətdədir".

O, iyunun 8-də doğuş üçün xəstəxanaya yerləşdirildiyini və iyunun 17-nə kimi mərkəzdə dəhşətli mənzərənin şahidi olduğunu bildirib: "Yerləşdirildiyim palatada anti-sanitar vəziyyət hökm sürürdü. Məni palataya qəbul edəndə yataq dəstlərini belə dəyişmədilər. Məcbur qalıb çirkli, məndən əvvəlki pasiyentin yatdığı yatağa gödəkcəmi sərib uzandım. Pəncərələrin qarşısında qarışqalar gəzirdi. Hətta qarışqalar körpəmə də daraşırdılar. Bununla bağlı etdiyim müraciətlərə isə məhəl qoyan yox idi".

Şikayətçi bildirib ki, mərkəzdə hamam işləmədiyi üçün xəstələr yayın istisində əziyyət çəkirlər: "Xəstəxanada hamam işləmir. Təsəvvür edin, artıq vəziyyət o yerə çatdı ki, Lənkərandan Cəlilabada evimizə gəlib yuyundum və bir gün sonra xəstəxanaya qayıtdım. Mərkəzin personalı da çox diqqətsizdir, xəstə ilə maraqlanmaq istəmirlər. Yalnız ayın 16-da bir yaxınımın xəstəxanaya zəng vurub şikayət etməsindən sonra əl-ayağa düşdülər. Ondan sonra mənə dedilər ki, "niyə şikayət edibsən?". Həmin gün palatanı təmizlədilər, yataq dəstimi dəyişdilər və mənə diqqət göstərməyə başladılar".

Məsələ ilə bağlı Lənkəran Mərkəzi Xəstəxanasının ictimaiyyətlə əlaqələr şöbəsindən isə bildirilib ki, mərkəzdə, həqiqətən də, hamam problemi var: "Bunu hələ ki, həll etmək mümkün olmayıb. Qurban bayramına görə işçilər xəstəxanada azlıq təşkil edir. Ona görə palatada müəyyən təmizlik işlərinə ehtiyac yaranıb. Amma bütün bunlar dərhal aradan qaldırılacaq və xəstələrə lazım olan bütün xidmətlər göstəriləcək".

Xəstəxananın mövqeyi kifayət qədər mücərrəd xarakter daşıyır və ümumi sözlərdən o yana keçmir, çünki bu tibb müəssisəsi ilə bağlı oxşar məzmunlu giley-güzarlar əvvəllər də səsləndirilib, hər dəfə də "dərhal aradan qaldırılacaq və xəstələrə lazım olan bütün xidmətlər göstəriləcək" kimi ənənəvi cavablar verilib. Lakin göründüyü kimi dəyişən heç nə yoxdur.

Yaxud: iki gün öncə isə yerli KİV Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasının doğum şöbəsində müalicə alanların kəskin iydən, natəmizlikdən gileyləndiyini yazıb. Yeni ana olmuş M.A deyib ki, yatdığı palatada iydən nəfəs tutulur, divarlarda böcəklər gəzir.

Xəstəxananın işdən çıxarılma qorxusu ilə adının çəkilməsini istəməyən əməkdaşı da hamilə qadınların, yeni ana olanların narazılığını haqlı sayır.

"Doğum evində tullantılar vaxtlı-vaxtında daşınmır, boş otağa yığılır. Nəticədə qalanmış tullantıların kəskin iyi palatalara yayılır, ən təhlükəlisi isə odur ki, natəmizlikdən yaranan həşəratlar bütün xəstəxanaya yayılır. Təsəvvür edin, divarlarda, xəstənin şkafında, çarpayılarda böcəklər gəzir, onsuz da doğuşdan sonra zəifləmiş, yaxud gərginlik içində olan qadınlar daha da narahat olurlar",-xəstəxananın əməkdaşı deyib.

O bildirib ki, xəstələrin müalicəsi ilə məşğul olan müəssisənin özü xəstəlik mənbəyinə çevrilib. Xəstələrin narazılıqları nəzərə alınmır, işçilər isə qorxularından səslərini çıxara bilmirlər.



Tullantıların vaxtlı-vaxtında daşınmamasının səbəbi kimi xəstəxananın Mingəçevir Şəhər Yaşıllaşdırma və Sanitar-Təmizlik İdarəsi ilə müqavilə bağlamaması göstərilir.

Tibbi tullantıların idarəolunmasına dair tələblər mövcuddur. Tibb müəssisəsində tullantıları infeksion və ya qeyri-infeksion (məişət) tullantılarına ayırmalı, tullantılar daşınandan sonra təyinatına uyğun məhv edilməlidir. Hələ pandemiyanın pik vaxtlarında xəstəxanalarda tullantıların daşınması ilə bağlı problemlərin olduğu məlum olmuşdu.

Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasından şikayətlə bağlı sualları cavablandırmaqdan imtina ediblər. Bildiriblər ki, mətbuatın suallarına TƏBİB cavab verə bilər. TƏBİB-in İctimaiyyətlə əlaqələr və marketinq departamentinin rəhbəri Zamirə Ədilova isə məzuniyyətdə olduğunu bildirib.

Qeyd edək ki, yuxarıdakı şikayətlər sadəcə son bir həftəyə aiddir. Mediada ötəri bir axtarış kifayətdir ki, son vaxtlar digər bölgələrdəki tibb müəssisələri ilə bağlı da çoxsaylı şikayətlərlə qarşılaşasan.TƏBİB rəhbərliyinin bütün bu giley-güzarlarla bağlı nə düşündüyü və hansı konkret addımlar atdığı isə kimsəyə bəlli deyil. Hər halda bu cür addımlar atılsaydı, az qala hər gün bir şəhər, yaxud rayon xəstəxanasından şikayət oxumalı olmazdıq.

Xatırladaq ki, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin - TƏBİB-in rəhbəri artıq 3 ildir ki, Vüqar Qurbanovdur. O, 2021-2022-ci illərdə bu qurumun İdarə Heyətinin sədri vəzifəsini yerinə yetirib.8 sentyabr 2022-ci ildə isə TƏBİB-in icraçı direktoru təyin edilib.

***Sənan Mirzə***

20_27 IYUl-QARA.qxd 6/20/2024 11:22 PM Page 12



## 5.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İllərdir yaşadılan qohum evlilikləri ənənəsi dəyişməlidir!

### Tibbi genetika üzrə tədqiqatçı alim Günay Əliyeva hesab edir ki, qohum evlilikləri autosom-resessiv adlanan irsi xəstəliklərin ortaya çıxma ehtimalını artırır

***Azərbaycanda belə bir deyim var- əmi qızı ilə əmi oğlunun nikahı göydə kəsilib. Yüz illərdir bu deyimə inananlar ailə qururlar. Qohum evlilikləri əksər hallarda valideynlər, qohum-əqrabalar tərəfindən də dəstəklənir. Belə nikahların baş verməsi bir çox hallarda sağlamlıq imkanları məhdud olan uşaqların dünyaya gəlməsinə səbəb olur. Ümümdünya Səhiyyə Təşkilatının məlumatına görə dünya əhalisinin 12 faizini sağlamlıq imkanları məhdud insanlar təşkil edir.***

Onların 40,5 faizinin ata-anaları qohumdurlar. Bu günlərdə Azərbaycanda da ailələrdə dünyaya gələn uşaqların sağlamlığı üçün yaxın qohumların nikahlarına qadağa qoyulması təklif edilib. Belə ki, Azərbaycanda nikahın bağlanmasına mane olan hallar artırılır. Bu, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclasında müzakirəyə çıxarılan Ailə Məcəlləsinə təklif edilən dəyişikliklərdə əksini tapıb.

Dəyişikliklə nikahın bağlanmasına mane olan halların sayı artırılır. Belə ki, Məcəlləyə aşağıdakı hallar əlavə edilir:

- qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqları;
- bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu;

Qeyd edilib ki, dünya əhalisinin bir qismi kimi, Azərbaycanda da qan qohumları arasında bağlanan nikahlar nəticəsində doğulan uşaqlarda genetik xəstəliklərin olması riski olduqca yüksəkdir. Məhz bu problemin həlli məqsədilə Ailə Məcəlləsinin 12-ci maddəsində (Nikahın bağlanmasına mane olan hallar) dəyişiklik edilməsi nəzərdə tutulur.

Mütəxəssislər də qohum nikahların genetik xəstəlikləri artıran önəmli faktor olduğunu təsdiqləyirlər. Məlumatlara görə, dünyada əngəlli doğulan uşaqların sayı 1 faizdirsə, qohum evliliklərindən dünyaya gələn belə uşaqlar 9 faizdir. Bu ailələrdə ölü və yarımçıq doğuşların sayı yad şəxslərlə evliliklərə nisbətən 2 dəfə çoxdur. Qohum evliliklərdə ən çox rast gəlinən qan xəstəlikləri, göz, qulaq, əzələ - sinir, ürək - damar və şəkər xəstəlikləri, əqli gerilik




və s-dir. Qan xəstəlikləri arasında isə talassemiya, hemofiliya və başqa qan xəstəlikləri daha çox yayılıb.

Tibbi genetika üzrə tədqiqatçı alim Günay Əliyeva "Unikal"a açıqlamasında bildirib ki, qohum evlilikləri zamanı irsi xəstəliklər ötürülə bilər. Ona görə də, qohum evliliklərinə qadağa qoyulması yaxşı təşəbbüsdür.

G. Əliyeva onu da deyir ki, qohum evlilikləri autosom-resessiv adlanan irsi xəstəliklərin ortaya çıxma ehtimalını artırır.

"Genetik xəstəliklər böyük qrup altında birləşib. Onların irsi ötürülmə yolları müxtəlifdir. Qohum evlilikləri autosom-resessiv adlanan irsi xəstəliklərin ortaya çıxma ehtimalını artırır. Autosom-resessiv yolla ötürülən xəstəliklərdə doğulan uşağın xəstə olması üçün ata və ananın xəstə olması o qədər də əhəmiyyət kəsb etmir. Valideynlərin daşıyıcı olması yetərlidir ki, uşaq xəstə doğulsun. Daşıyıcılar xəstəliyə məruz qalmasalar, hətta xəstəliyin yalnız genini daşısalar da, qohum nikahlarda bu xəstəliyin növbəti nəslə ötürülmə riski böyük olur. Onlar epidemioloji olaraq potensial təhlükədirlər. Qohum nikahlarda genin daşıyıcılığı artıq o nəsildə olduğundan ötürmə riski də artmış olur".

Tədqiqatçı alimin sözlərinə görə, Azərbaycanda qohum nikahlarla ən çox yayılan talassemiya xəstəliyi və oraq hüceyrəli anemiya xəstəliyidir. O, bildirib ki, on il əvvələ qədər bu xəstəliklərə müəyyən rayonlarda rast gəlinirdisə, son illər miqrasiya ilə əlaqədar bütün bölgələrdə bu xəstəliklər qeydə alınır: " Rəsmi nikaha daxil olan şəxslərin talassemiyaya qarşı məcburi tibbi müayinəsinin aparılması bir sıra mühüm məqamları üzə çıxardıb. Tədqiqat zamanı məlum olub ki, nikaha daxil olan, hər ikisi daşıyıcı olan cütlüklərin 29 faizi qohum nikahında olanlardır. Onlardan 16 faizi əmiuşaqlarıdır. Qohum nikahında olan cütlüklər respublikanın aran bölgəsindən, Şəki-Zaqatala, Abşeron və Lənkəran bölgələrindəndir. Talassemiya və oraqvari hüceyrə anemiyası bizim respublikamız üçün endemikdir. Yüksək sıxlıqla rast gəlinir. Respublikanın 4 faizi Beta Talassemiyanın, 10 faizi isə alfa talassemiyanın daşıyıcısıdır. Hər ikisi daşıyıcı olan cütlüklərin evlənməsi xəstə uşaq dünyaya gətirmə statistikasını böyüdür. Odur ki, bunun qarşısını almaq üçün qohum evliliklərinə qadağanın qoyulması yaxşı təşəbbüsdür".

Həmsöhbətimiz qohum olmadan da belə cütlüklərin evlənməsi zamanı talassemiya xəstəliyinə görə müayinənin aparılmasının vacib olduğunu söyləyir. G. Əliyeva deyir ki, talassemiyalı xəstələrdə prenetal diaqnostika ilə xəstə uşağın dünyaya gəlməsinin qarşısını almaq olar. Bu genefondun daha da yaxşılaşmasına müsbət təsir edərək xəstə uşaqların dünyaya gəlməsinin qarışısını almış olar.

Qeyd edək ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova qohum evlilikləri ilə bağlı təşkil edilən ictimai müzakirədə qohum evliliklərində əlil uşaqların doğulması riskinin yad şəxslərin evlilikləri ilə müqayisədə iki dəfə yüksək olduğunu söyləyib. Onun sözlərinə görə, əlil doğulan uşaqların 8.4 faizi qohum evliliklərinin nəticəsidir. Belə evliliklərdə ölü və yarımçıq doğumların sayı da çoxdur.

Xatırladaq ki, hazırkı qanunvericiliyə əsasən, aşağıdakı şəxslər arasında nikahın bağlanmasına yol verilmir:

- yaxın qohumlar (valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacılar);
- övladlığa götürənlər və övladlığa götürülənlər;
- ikisindən biri və ya hər ikisi başqası ilə nikahda olan şəxslər;
- bu Məcəllənin 13-cü maddəsində nəzərdə tutulmuş tibbi müayinədən keçməyən şəxslər;
- ikisindən biri və ya hər ikisi ruhi xəstəlik və ya əqli gerilik nəticəsində məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslər.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## BMT-də Bakı Təşəbbüs Qrupunun konfransı keçiriləcək

***Bakı Təşəbbüs Qrupunun sabah BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında kolonializmə qarşı mübarizə ilə bağlı növbəti konfransı keçiriləcək.***

Konfrans BMT-nin "Müstəmləkə altındakı ölkələr və xalqlara müstəqillik verilməsi haqqında Bəyannamə"nin icrası ilə bağlı yaradılmış xüsusi Komitəsinin (C24) illik iclası çərçivəsində baş tutacaq.

"Müstəqilliyə və Fundamental Azadlıqlara doğru: Müstəmləkəçiliyə son qoyulmasında C24 Komitəsinin Rolu" adlı konfransda Fransa və Niderlandın müstəmləkə altında saxladığı ərazilərdən, habelə Korsika, Fransız Qvianası, Qvadalup, Martinik, Maohi Nui (Fransız Polineziyası), Kanaki (Yeni Kaledoniya), eləcə də Sen-Martin, Bonayre, həmçinin ABŞ, Fransa, Braziliya, Qəmər Adaları İttifaqı və Niderlanddan 40-dan artıq rəsmi şəxslər, müstəqillik hərəkatlarının rəhbər şəxsləri, dekolonizasiya üzrə ekspertlər, deputat və tədqiqatçılar iştirak edəcəklər.

Bakı Təşəbbüs Qrupunun əvvəlki konfranslarından fərqli olaraq, bu tədbirdə ilk dəfə Niderlandın koloniyaları: Sen-Martin və Bonayredən nümayəndələrinin iştirakı və çıxışı nəzərdə tutulur.

Konfransda həmçinin Yeni Kaledoniyanın xarici işlər naziri ölkəsində baş verən son hadisələr, o cümlədən Fransa hökumətinin kanak xalqına qarşı həyata keçirdiyi vəhşiliklər barədə dünya ictimaiyyətini məlumatlandıracaq.

## ETX və "Gənclərin Maarifləndirilməsinə Dəstək" İB əməkdaşlığa başlayıb

***Elektron Təhlükəsizlik Xidməti (ETX) və "Gənclərin Maarifləndirilməsinə Dəstək" İctimai Birliyi arasında Əməkdaşlıq Memorandumu imzalanıb.***



"Unikal" xəbər verir ki, memorandumun əsas məqsədi informasiya təhlükəsizliyi və fərdi məlumatların mühafizəsi üzrə məlumatlılığın artırılması sahəsində, eləcə də sosial şəbəkələrdən istifadə qaydaları kimi mövzularda əməkdaşlığın gücləndirilməsi, inkişaf etdirilməsi və birgə fəaliyyətin təşkil edilməsidir.

Əməkdaşlıq çərçivəsində ETX-nin "Gənclərin Maarifləndirilməsinə Dəstək" İctimai Birliyinin iştirakçılarına bilik mübadiləsi sessiyalarının keçirilməsi, maarifləndirmə xarakterli tədbirlərin və təlimlərin təşkili, həmin təlimlərin iştirakçılarına ETX tərəfindən materiallar və sertifikatların təqdim edilməsi, İctimai Birlik tərəfindən təşkil olunan tədbirlərdə ETX-nin əməkdaşlarının qonaq spiker qismində çıxış etməsi nəzərdə tutulur.

20_27 IYUl-QARA.qxd 6/20/2024 11:22 PM Page 13



# "Azərişıq" Ağdamda yenidənqurma işlərini davam etdirir



***İşğaldan azad edilən bütün regionlarda olduğu kimi "Azərişıq" ASC Ağdamın da elektrik təsərrüfatının yenilənməsi işlərini sürətlə davam etdirir. Cənab Prezident İlham Əliyevin tapşırığına əsasən həyata keçirilən yenidənqurma işləri çərçivəsində Ağdamda keyfiyyətli, dayanıqlı və etibarlı elektrik enerjisi təchizatı üçün müasir standartlara uyğun, yeni elektrik şəbəkəsi qurulur.***

"Unikal" xəbər verir ki, Ağdam şəhərində tikinti-quraşdırma işləri aparan təşkilatların və strateji obyektlərin enerji ilə təmin olunması üçün xüsusi şəbəkələr yaradılıb. Hər birinin gücü 10 mVA olmaqla 35/04 kV-luq 2 yarımstansiya inşa edilib və gələcəkdə bu yarımstansiyalar vasitəsilə Ağdam şəhər mərkəzinin işıqlandırılması nəzərdə tutulub.

Hazırda Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin tikintisi davam edir. Yenidən qurulan Kəngərli, Xıdırlı və Sarıcalı kəndlərində isə yeni dayaqlar basdırılıb, 35/04 kV-luq Özünüdaşıyan İzolyasiyalı Naqillər (ÖİN) çəkilib. İşlərə cəlb edilən əməkdaşların əksəriyyəti elə Ağdam sakinləridir.

Gələcəkdə Güllücə, Baş Qərvənd və Salahlı Kəngərli kəndlərində də yeni xətlərin çəkilişi nəzərdə tutulub. Ümumilikdə, Ağdam şəhəri və kəndlərinin kabelləşdirilməsi Şəhərsalma Planına əsasən aparılır.

Qeyd edək ki, Azərişıq" ASC ölkənin bütün regionlarında paralel şəkildə yenidənqurma işlərini davam etdirir. Məqsəd vətəndaşların dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunması, elektrik enerjisi itkilərinin minimuma endirilməsidir.

# Sertifikasiya imtahanı verəcək müəllimlərə xəbərdarlıq olundu

***Azərbaycan Respublikası Təhsil İnstitutunun nəzdində İnsan Resursları Mərkəzi sertifikatlaşdırmada iştirak edəcək müəllimlərə müraciət edib.***

"Unikal"ın məlumatına görə, müraciətdə bildirlib ki, müəllimlər 21, 22, 24 iyun tarixlərində keçiriləcək sertifikatlaşdırma prosesinin test imtahanlarına gələrkən yalnız şəxsiyyəti təsdiq edən sənədi özlərilə gətirməlidirlər.

"İmtahan binasına çanta və ya digər şəxsi əşyaları gətirməməyiniz tövsiyə olunur!", - deyə müəllimlərə xəbərdarlıq olunub.

Xatırladaq ki, 21, 22, 24 iyun tarixlərində keçiriləcək sertifikatlaşdırma prosesinin test imtahanları respublikanın 18 şəhər və rayonundakı 27 məktəbdə təşkil olunacaq.

Təhsilverənlərin Sertifikatlaşdırılması Şurasının qərarına əsasən, həmin tarixlərdə bu il ilk dəfə prosesə cəlb olunacaq riyaziyyat və xarici dil (ingilis dili, rus dili, Azərbaycan dili (rus bölməsi), alman dili, fransız dili və s.) fənlərini tədris edən təhsilverənlər, eyni zamanda ibtidai sinif, Azərbaycan dili və ədəbiyyat müəllimləri imtahan verəcəklər.

# Bakıda ümumşəhər iməciliyi keçiriləcək

***İyunun 22-də Bakıda növbəti genişmiqyaslı daxili ümumşəhər iməciliyi keçiriləcək.***

Bu barədə "Unikal"a Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, iməciliyin məqsədi şəhərin sanitar təmizlik səviyyəsinin daha da yüksəldilməsi, mövcud yaşıllıqlara qulluq göstərilməsidir.

BŞİH paytaxt sakinlərini, müəssisə, idarə və təşkilatların kollektivlərini, həmçinin sahibkar və özəl sektorda çalışanları bu iməcilikdə fəal iştirak etməyə, həmçinin özlərinə məxsus obyekt və mənzillərin pəncərələrini, vitrinlərini, ətraf ərazilərini təmizləməyə çağırıb.

**ELAN**

**FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən İbrahimov Rəşad Vahid oğluna verilmiş AA 04291, AA04292 nömrəli gəmi biletləri itdiyi üçün etibarsız sayılır.**

**İTMİŞDİR**

**YAP Yasamal Rayon Təşkilatı tərəfindən 01 mart 2012-ci il tarixdə Hümmətov Eyvaz Məməd oğluna verilmiş partiya bileti itdiyi üçün etibarsız sayılır.**

# Aqrar sığortanın əhatə dairəsi genişləndiriləcək - Nazir açıqladı

***Aqrar sığorta sektoru ilə bağlı hədəflərimiz genişdir. Yaxın gələcəkdə aqrar sığortanın əhatə dairəsinin genişləndirilməsi, iqlim dəyişikliyinin kənd təsərrüfatı sektoruna təsirinin minimuma endirilməsi məqsədilə daha innovativ sığorta məhsullarının təqdim edilməsi nəzərdə tutulur.***



"Unikal" xəbər verir ki, bunu kənd təsərrüfatı naziri Məcnun Məmmədov Bakıda keçirilən Beynəlxalq Sığorta Forumunda çıxışı zamanı deyib.

O bildirib ki, kənd təsərrüfatı birbaşa təbiətlə bağlı sahə olduğundan Yer kürəsində müşahidə olunan qlobal iqlim dəyişikliyi aqrar sahəyə mənfi təsirini artırmaqdadır.

"Qlobal istiləşmə, atmosfer yağıntılarının azalması və ya anormal paylanması, sel və subasma hadisələri, torpaqların davamlı erroziya və şoranlaşmaya məruz qalması aqrar sahə üçün ciddi çağırışlar yaradır. Azərbaycan hökuməti öz növbəsində iqlimə uyğun kənd təsərrüfatı sistemlərinin inkişafına dəstək verir. İqlimə uyğun ağıllı əkinçilik və bağçılıqda müasir texnologiyalarının tətbiqi stimullaşdırılır. Aqrar sahənin davamlı inkişafının təmin edilməsi baxımından vacib məsələlərdən biri də aqrar sığorta mexanizmidir. Qabaqcıl dünya təcrübəsinə əsasən sığorta mexanizmləri aqrar sektorda risklərin idarəedilməsi və davamlı fəaliyyətin təmin edilməsi üçün ən mühüm mexanizm hesab olunur", - deyə M.Məmmədov qeyd edib.

Nazir vurğulayıb ki, Azərbaycanda tətbiq edilən aqrar sığorta modeli dünyada mövcud olan analoji sistemlərin uğurlu tətbiqinə əsaslanaraq hazırlanıb: "Ölkəmizdə aqrar sığorta sistemi qardaş Türkiyənin TARSİM sisteminin təcrübəsi və dəstəyi ilə formalaşdırılıb. Bu model fermerlərimizin dayanıqlı fəaliyyətlərini təmin etmək, sahəyə marağın stimullaşdırılmasını həyata keçirmək və gəlirlərinin davamlılığını qorumaq üçün nəzərdə tutulub. Dövlət-özəl sektor əməkdaşlığına əsaslanan bu model işlək və uğurlu bir modeldir. Belə ki, məhsulların Aqrar Sığorta Fondu ilə özəl sığorta şirkətləri tərəfindən birgə sığortalanması investisiya risklərini azaldır, fermerlərə dövlət dəstəyini gücləndirir, məşğulluğa müsbət təsir edir, ərzaq təhlükəsizliyinə töhfə verir və sığorta bazarını gücləndirir. Bu baxımdan ölkəmizdə aqrar sığorta mexanizminin tətbiqi dövlətin aqrar sahəyə dəstəyinin növbəti təzahürü kimi qiymətləndirilməlidir".

# 1400-ə yaxın şəxs rezidenturaya imtahan verəcək

***23 iyun 2024-cü il tarixində Dövlət İmtahan Mərkəzi tərəfindən rezidenturaya qəbul imtahanının birinci mərhələsi (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı, ikinci cəhd) keçiriləcək.***

DİM-dən "Unikal"a verilən xəbərə görə, imtahanda iştirak etmək üçün 1373 namizəd qeydiyyatdan keçib. Onlardan 1036 nəfər Azərbaycan, 337 nəfər isə rus bölməsi üzrə imtahan verəcək. Ərizə verənlərin 543 nəfəri oğlan, 830 nəfəri isə qızdır. 223 nəfər cari ilin, 522 nəfər əvvəlki illərin məzunudur. 628 nəfər isə növbəti illərdə məzun olacaq. 13 nəfər xarici ölkə vətəndaşıdır.

İmtahan Bakı və Naxçıvan şəhərlərində keçiriləcək. İmtahan saat 10:00-da başlanır və 2 saat 30 dəqiqə davam edir. İmtahanın başlanmasına 15 dəqiqə qalmış saat 09:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

İmtahanda iştirak edən namizədlər DİM-in internet saytına daxil olaraq "İmtahana buraxılış vərəqəsi"ni çap etməlidirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Namizədin yaddaş kitabçası" da təqdim olunur. Burada namizədlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

Namizədlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- şəxsiyyəti təsdiq edən sənədin əsli;
- "İmtahana buraxılış vərəqəsi".




İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır. Binaya mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vəsaitlər gətirmək qadağandır. İştirakçılardan imtahan binasına əlavə əşyaları gətirməməyi xahiş edirik. Bütün bunlar buraxılış rejimi işinin səmərəli təşkilinə və onun vaxtında başa çatdırılmasına mane olur.

İmtahanların keçirilməsi üçün 6 bina, 14 imtahan rəhbəri, 6 ümumi imtahan rəhbəri, 119 nəzarətçi, 18 buraxılış rejimi əməkdaşı (mühafizə) və 6 bina nümayəndəsi ayrılıb.

# Bu avtobusların sərnişinlərinin nəzərinə!

***Bu gündən "28 May" metrostansiyası və Bakı Dəmiryol Vağzalı qarşısındakı ərazidə aparılan təmir işləri ilə əlaqədar Nəqliyyat Mübadilə Mərkəzinə daxil olan müntəzəm avtobus marşrutlarının hərəkət sxemləri müvəqqəti dəyişdirilib.***

Bu barədə "Unikal"a Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib.

Dəyişikliyə əsasən, iyunun 20-dən 14 sayda avtobus marşrutunun dayanacaq məntəqələri dörd müxtəlif ərazidə təşkil edilir.

20_27 IYUI-QARA.qxd 6/20/2024 11:22 PM Page 14



# 2024-cü ilin yanvar-mart ayında Qazax rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri

***2024-cü ilin yanvar-mart aylarında Qazax rayonu üzrə iqtisadiyyatın əsas sahələrində ümumi məhsul buraxılışı 87 milyon 320,8 min manat təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,7 faiz artmışdır. Məhsul buraxılışının həcmi 2023-cü ilin yanvar-mart ayları ilə müqayisədə sənayedə 16,5 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsində 17,2 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 4,2 faiz artmış, tikintidə 52,5 faiz, informasiya və rabitə xidmətləri sahəsində 22,7 faiz azalmışdır.***

2024-cü ilin yanvar-mart ayları ərzində məhsul və xidmətlərin 89,9 faizi iqtisadiyyatın qeyri-dövlət sektoruna aid olmuşdur. Əhalinin hər nəfərinə düşən ümumi məhsul və xidmətlər 907,6 manat təşkil etmişdir.

Sənaye. 2024-cü ilin yanvar-mart ayları ərzində faktiki qiymətlərlə 43 milyon 871,2 min manatlıq və ya 2023-cü ilin yanvar-mart aylarına nisbətən 16,5 faiz çox sənaye məhsulu istehsal edilmiş və sənaye xidmətləri göstərilmişdir. İstehsalın ümumi həcmində mədənçıxarma sektoru 15,2 faiz, emal sektoru 66,8 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektoru 17,3 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektoru 0,7 faiz təşkil etmişdir. Məhsulun 82,0 faizi qeyri-dövlət sektorunun payına düşmüş və 2023-cü ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 16,3 faiz artmışdır. 2024-cü ilin yanvar-mart aylarında mədənçıxarma sektorunda 6 milyon 646,0 min manatlıq, emal sektorunda 29 milyon 313,2 min manatlıq məhsul istehsal edilmiş, 2023-cü ilin yanvar-mart aylarına nisbətən məhsul istehsalı müqayisəli qiymətlərlə mədənçıxarma sektorunda 23,3 faiz azalmış, emal sektorunda 25,3 faiz artmışdır. Emal sektorunda 2023-cü ilin yanvar-mart aylarına nisbətən tikinti materiallarının istehsalı 15,5 faiz artmış, mebellərin istehsalı 3,0 faiz azalmışdır.



Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın real həcmi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 20,8 faiz artmış, rayon əhalisinə və digər istehlakçılara 24980,3 MVt.s elektrik enerjisi, 47,8 milyon kub metr təbii qaz verilmişdir.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsalın real həcmi 4,9 faiz artmış, əhaliyə və digər istehlakçılara 254,2 min kub metr təbii su verilmişdir.

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq. 2024-cü ilin məhsulu üçün 4477,0 hektar sahədə buğda, 6838,0 hektar sahədə arpa səpini aparılmışdır.

2024-cü ilin yanvar-mart aylarında heyvandarlıq sahəsində 1317,0 ton ət (diri çəkidə), 7449,3 ton süd, 2718,0 min ədəd yumurta istehsal edilmişdir. 2023-cü ilin yanvar-mart aylarına nisbətən ət istehsalı 0,6 ton azalmış, süd istehsalı 0,3 ton, yumurta istehsalı 2,0 min ədəd (0,1 faiz) artmışdır.

2024-cü ilin aprel ayının 1-nə 29326 baş iribuynuzlu mal-qara (ondan 16028 baş inək və camış), 126376 baş qoyun və keçi mövcud olmuşdur. 2023-cü ilin eyni dövrünə nisbətən mal-qaranın baş sayı 0,8 faiz, qoyun və keçilərin baş sayı isə 1,1 faiz azalmışdır.

Tikinti. 2024-cü ilin yanvar-mart ayları ərzində bütün maliyyə mənbələrindən əsas kapitala 1 milyon 895,0 min manat məbləğində, yaxud 2023-cü ilin eyni dövrü ilə müqayisədə 52,2 faiz az vəsait yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 1 milyon 765,4 min manatı və ya 93,2 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Nəqliyyat. 2024-cü ilin yanvar-mart ayları ərzində avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 3631,0 min nəfər sərnişin daşınmış, 2023-cü ilin eyni dövrünə nisbətən 6,8 faiz artım müşahidə olunmuşdur.

2024-cü ilin yanvar-mart aylarında avtomobil nəqliyyatı ilə 432,0 min ton yük daşınmış və 2023-cü ilin yanvar-mart aylarına nisbətən 6,7 faiz artmışdır.

İnformasiya və rabitə. İnformasiya və rabitə müəssisələri tərəfindən 2024-cü ilin yanvar-mart aylarında faktiki qiymətlərlə 463,0 min manatlıq xidmət göstərilmiş, xidmətlərin 396,3 min manatı və ya 85,6 faizi əhali tərəfindən istehlak olunmuşdur. 2023-cü ilin yanvar-mart ayları ilə müqayisədə informasiya və rabitə xidmətlərinin həcmi dəyər ifadəsində 22,7 faiz azalmış, bu sahədə əldə olunmuş gəlirin 84,1 faizi dövlət sektoru tərəfindən həyata keçirilmiş, 2023-cü ilin yanvar-mart aylarına nisbətən 26,2 faiz azalmışdır.

Pərakəndə ticarət. 2024-cü ilin yanvar-mart aylarında pərakəndə ticarət şəbəkələrindən əhaliyə 72 milyon 648,5 min manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 9 milyon 650,0 min manatlıq ödənişli xidmət göstərilmişdir. 2023-cü ilin yanvar-mart ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi 4,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir isə 2,0 faiz artmışdır.

Ticarət şəbəkələrində 42 milyon 132,2 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 30 milyon 516,3 min manatlıq qeyri-ərzaq məhsulları satılmışdır. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə ərzaq məhsullarının, içkilər və tütün məmulatlarının satışı 1,5 faiz, qeyri-ərzaq məhsullarının satışı 8,3 faiz artmışdır.

İstehlak qiymətləri indeksləri. 2024-cü ilin mart ayında istehlak məhsullarının və ödənişli xidmətlərin qiymətlərində fevral ayına nisbətən 0,2 faiz bahalaşma, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatlarının qiymətlərində 0,4 faiz, qeyri-qida məhsullarının qiymətlərində 0,1 faiz bahalaşma müşahidə olunmuş, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətlərində dəyişiklik müşahidə olunmamışdır. 2024-cü ilin yanvar-mart aylarında 2023-cü ilin müvafiq dövrünə nisbətən istehlak məhsullarının və ödənişli xidmətlərin qiymətlərində 1,7 faiz bahalaşma, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatlarının qiymətlərində 1,7 faiz, qeyri-qida məhsullarının qiymətlərində 0,9 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətlərində 2,3 faiz bahalaşma müşahidə olunmuşdur.

Əməkhaqqı. 2024-cü ilin yanvar-mart ayları ərzində muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 697,0 manat, dövlət sektorunda 668,6 manat, qeyri-dövlət sektorunda 744,5 manat təşkil etmişdir. İqtisadiyyatın ayrı-ayrı sahələrində işləyənlərin orta aylıq nominal əməkhaqqı orta rayon göstəricisinə nisbətən yüksək olmuş, emal sənayesində 1440,9 manat, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində 861,3 manat, maliyyə və sığorta sahəsində 1647,7 manat, daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahəsində 434,7 manat, dövlət idarətməsi və müdafiə; sosial təminat sahəsində 997,6 manat, təhsil sahəsində 614,2 manat, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində 726,5 manat, istirahət, əyləncə və incəsənət sahəsində 471,3 manat təşkil etmişdir.

Demoqrafik vəziyyət. 2024-cü ilin yanvar-mart aylarında rayon əhalisinin sayı ilkin hesablamalara əsasən 30 nəfər artaraq 2024-cü il aprel ayının 1-i vəziyyətinə 96 min 236 nəfər təşkil etmişdir.

***Qazax rayon Statistika İdarəsi***



# Şəhid ömrü...

***Vətən qarşısında xüsusi xidmətləri olan, qəhrəmanlığı dillərdə dastana dönən Yusif Məmmədrza oğlu Xəlilovun həyat yolu örnək kimi tarixə yazıldı. O, şanlı Azərbaycan Ordusu tərəfindən 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağda keçirilən lokal antiterror tədbirləri zamanı yağı düşmənin bütün məkrli planlarının üstündən xətt çəkməklə 40 yaşında şəhidlik zirvəsinə ucalıb.***

Həyatı dərk edən gündən doğma Azərbaycana ürəkdən bağlanan, onun hər qarışını özünə əziz bilən Yusif Xəlilov 30 aprel 1983-cü ildə Lənkəran rayonunun Veravul kəndində dünyaya göz açıb. Yusif orta məktəbi bitirib ordu sıralına yollanıb. Düşmənlə üzbəüz səngərdə Vətənin keşiyində durub. Nümunəvi xidməti, mərdliyi, cəsurluğu onu zabitlərin , əsgərlərin sevimlisi edib. Təlimlərdə həmişə fərqlənən əsgər Vətən torpaqların azadlığı naminə səngərə- yağı düşmənlə döyüşüb qisas almağa can atıb...

Namuslu, vicdanlı gənc, doğma Azərbaycanın hər qarışına ürəkdən bağlı olan Yusif Xəlilov əsgəri borcunu şərəflə başa vurub üzüağ evinə qayıdıb. Qaldı ki, qəlbində coşub-daşan vətəndaşlıq yanğısı onu yenidən ordu sıralarına qaytarıb. Bu yolda əsas məqsədi də Vətən torpaqlarını nəyin bahasına olursa-olsun tezliklə düşmənin tapdağından azad görmək olub.

"Vətən uğrunda ölmək şərəfdir" şüarını əldə rəhbər tutan Yusif hərbi kursu başa vurub gizir rütbəsində ermənilərə ən yaxın təmas xəttində xidmətini davam edib. İlk gündən bütün təlimlərdə feal olmaqla, peşəkar bir hərbiçi kimi püxtələşib. Öz canını Vətən yolunda fəda etməyə hazır igid döyüşçü olmaqla tabeliyində bütün əsgərləri diqqət mərkəzində saxlayıb. Əsgərləri yüksək nizam-intizamla, hərbi anda sədaqətlə, tapşırıqları sözsüz yerinə yetirməklə fərqlənib. Məqamı gələndə işğalçı düşmənə layiqi cavab vermək üçün ağır sınaqlara ürəklə gediblər...

Qəlbi doğma Azərbaycanla döyünən, həmişə Qarabağın işğalına qarşı barışmaz mövqeyini ortaya qoyan Yusif Xəlilov 2016-ci ilin Aprel döyüşlərində yağı düşmənlə üzüzə gəlib. Ölümə meydan oxumaqla misilsiz qəhrəmanlıq örnəyi göstərib. Belə ki, erməni dığalarına qan uddura-uddura Lələ təpəyə üçrəngli qələbə bayrağımızı taxanların önündə olub. Bu qazanılan möhtəşəm zəfərdə Yusif ağır yaralanıb. Nəticədə müalicə olunduğu üçün bir müddət ordudan kənar düşüb. Sağaldıqdan sonra tank komandiri kimi yenidən Vətəninin keşiyində durub. Lokal antiterror əməliyyatına qoşulan 18 il orduda xidmət edən igid döyüşçü son damla qanına qədər vuruşaraq əbədiyyətə qovuşub. Doğulub boya-başa çatdığı Veravul kəndində torpağa tapşırılıb. Milyonların ürəyində özünə əbədi məkan quran qəhrəman Vətən sevdalısından iki qız övladı bizə əmanət qalıb.

***Zəfər Orucoğlu, AJB üzvü***

20_27 IYUl-QARA.qxd 6/20/2024 11:22 PM Page 15



## "Kiyev bu zaman dağılacaq" - Ukraynanın eks-baş naziri



***"Ukraynadakı siyasi rejim Qərbin dəstəyi olmadan mövcud ola bilməz, əgər Qərbdən maliyyə dəstəyi dayansa, o, dağılacaq".***

"Unikal" xəbər verir ki, bu barədə Ukraynanın keçmiş baş naziri Nikolay Azarov "Telegram" kanalında yayıb.

Ukraynanın keçmiş baş naziri xatırladıb ki, Ukrayna Maliyyə Nazirliyi bu il Qərbdən təxminən 200 milyard dollar gözləyir.

***Gülayə Mecid***

## Türkiyədə quduzluqla bağlı karantin rejimi elan edildi

***Türkiyənin Niğde vilayətinin Bor rayonunda sahibsiz itin bir adamı dişlədiyi məhəllədə karantin rejimi tətbiq olunub.***

"Unikal" xəbər verir ki, Niğde Bələdiyyəsi yerli sakini iyunun 18-də sahibsiz it dişləməsi sonrası ərazidə quduzluqla bağlı karantin rejimi elan edib.

Xəstəxanada müalicəsi davam etdirilən H.Ş.-nin səhhəti yaxşıdır və nəzarətdə saxlanılır.

Həmçinin xəstəliklərin yayılmasının qarşısının alınması üçün görülən tədbirlərə əməl etməyənlərin inzibati qaydada cərimələnməsi barədə qərar qəbul edilib.

***Ağarza Elçinoğlu***

## Ərdoğan və Putin Qazaxıstanda görüşəcəklər



***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Astanada Şanxay Əməkdaşlıq Təşkilatının ( ŞƏT ) sammiti çərçivəsində Rusiya prezidenti Vladimir Putinlə danışıqlar aparmaq niyyətindədir.***

"Unikal" xəbər verir ki, bu barədə "Habertürk" nəşri məlumat yayıb.

Bildirilir ki, Ərdoğan və Putin arasında keçirilən görüşdə Ukrayna münaqişəsi, taxıl tədarükü fonunda Qara dənizdəki vəziyyət, Akkuyu AES-in tikintisi, qaz qovşağının yaradılması perspektivləri və Suriyanın şimalındakı kürd bölgələri müzakirə edilə bilər.

***Gülayə Mecid***

## "Bir ay ərzində sülh müqaviləsi bağlamağa hazırıq" - Mirzoyan



***"Azərbaycanla sərhədlərin demarkasiyası prosesinə başlamışıq".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan litvalı həmkarı Qabrielius Landsbergis ilə birgə mətbuat konfransında deyib.

O, Cənubi Qafqazda sülh, uzunmüddətli sabitlik və qonşularla münasibətlərin normallaşdırılması prosesindən danışıb: "İndi bu prosesin davam etdirilməsini, ərazi bütövlüyünün qarşılıqlı tanınmasını təmin etmək çox vacibdir, çünki sərhəddə sülhün bərqərar olması və hər hansı bir münaqişənin qarşısını almaq həyati əhəmiyyət kəsb edir. Ən əsası Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasıdır. Biz Azərbaycana çoxlu konstruktiv təkliflər göndərmişik, əvvəllər təklif etdiyimiz kimi, yaxın bir ay ərzində müqaviləni yekunlaşdırmağa hazırıq. Təəssüf ki, Azərbaycan tərəfdən heç bir cavab yoxdur..."

***Ağarza Elçinoğlu***

# Paşinyan rejimi Qarabağ ermənilərinə "qaçqın" statusu verib

***Ermənistan Qarabağı könüllü şəkildə tərk edən ermənilərə "qaçqın" statusu verib.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın daxili işlər naziri Vahe Qazaryan açıqlayıb.

"Dağlıq Qarabağdan məcburi köçkün düşmüş soydaşlarımız Ermənistan Respublikasının himayəsi altına alınaraq qaçqın statusu alıblar", - o deyib.

***Ağarza Elçinoğlu***



# Rusiya XİN-dən Ermənistanın KTMT-nin iclasında iştirak etməməsinə münasibət

***"Moskva gözləyir ki, İrəvan KTMT platformasının regional təhlükəsizliyin təmin edilməsi məsələlərində əməkdaşlıq üçün hər cür imkanlar yaratdığını başa düşəcək".***

"Unikal" xəbər verir ki, bunu Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin "RİA Novosti" agentliyinə Ermənistanın təşkilatın Xarici İşlər Şurasının iclasında iştirak etməməsini şərh edərkən bildirib.



"Biz gözləyirik ki, erməni tərəfdaşlarımız və biz müttəfiq olaraq qalırıq, buna baxmayaraq, regional təhlükəsizliyin təmin edilməsinin ən effektiv metodunun regional dövlətlər arasında əməkdaşlıq olduğunu və KTMT platforması bunun üçün hər cür imkan yaratdığını anlayacaq", - Qaluzin bildirib.

***Gülayə Mecid***

# Almaniya Rusiyaya qarşı yeni sanksiyalar paketinin qəbulunu ləngidir

***Aİ ölkələri Rusiyaya qarşı 14-cü sanksiyalar paketi ilə bağlı razılığa gələ bilməyiblər, çünki Almaniya Rusiyaya qarşı yeni sanksiyalar paketinin qəbulunu ləngidir.***

"Unikal" xəbər verir ki, bu barədə "Reuters" Aİ diplomatlarına istinadən məlumat yayıb.

Aİ-nin 27 ölkəsinin rəsmiləri bir aydan çoxdur ki, yeni sanksiyalar paketini müzakirə edir. Yeni tədbirlərə Rusiyanın mayeləşdirilmiş təbii qazının (LNG) daşınmasına qadağa və üçüncü ölkələrdəki törəmə şirkətlər və tərəfdaşlar tərəfindən sanksiyaların pozulmasına görə Aİ operatorlarını məsuliyyətə cəlb etmək planı daxildir.

Bildirilir ki, Almaniyanın tərəddüdü ölkənin Xarici İşlər Nazirliyi ilə kansler ofisi arasında daxili fikir ayrılıqları ilə bağlıdır. Bu səbəbdən də sanksiyalar paketinin qəbulu gecikir.

***Gülayə Mecid***



# "Gürcüstanın Aİ-yə üzvlüyü prosesi dondurulub" - Səfir

***Gürcüstanın Avropa İttifaqına üzvlüyü prosesi praktiki olaraq dondurulub.***

"Unikal" xəbər verir ki, bu barədə Avropa İttifaqının Gürcüstandakı səfiri Pavel Qerçinski bildiirb.

O, bu prosesi məyusedici adlandırıb. Onun sözlərinə görə, Gürcüstanda "xarici agentlər" haqqında qanun qəbul edildikdən sonra cavab tədbirləri mövzusu gələn həftə Lüksemburqda Aİ xarici işlər nazirləri səviyyəsində müzakirə olunacaq: "Hazırda Gürcüstanla Avropa İttifaqı arasında münasibətlər çox çətin dövrdədir, biz dəfələrlə təkrar etmişik ki, "Xarici təsirin şəffaflığı haqqında" qanun Gürcüstanın Avropaya inteqrasiya istəklərinə mənfi təsir göstərəcək. Təəssüf ki, belə oldu".



***Ağarza Elçinoğlu***

# Kanada vətəndaşlarını İranı tərk etməyə çağırdı

***Kanada İslam İnqilabı Keşikçiləri Korpusunu (SEPAH) terror təşkilatı kimi tanıdıqdan sonra öz vətəndaşlarını İranı tərk etməyə çağırıb.***

"Unikal" xəbər verir ki, bu barədə CBS telekanalı məlumat yayıb. "Kanada İslam İnqilabı Keşikçiləri Korpusu ilə mübarizə aparmaq üçün əlində olan bütün vasitələrdən istifadə edəcək", - deyə İctimai Təhlükəsizlik naziri Dominik LeBlan bildirib.



20_27 IYUl-QARA.qxd 6/20/2024 11:22 PM Page 16



# Azərbaycan futzal millisinin FIFA reytinqindəki mövqeyi bəlli oldu

***FIFA ilk dəfə futzal üzrə milli komandaların reytinq cədvəlini açıqlayıb.***




"Unikal" xəbər verir ki, aktivində 1139.38 xal olan Azərbaycan millisi 29-cu pillədə qərarlaşıb.

Siyahıya beşqat dünya çempionu Braziliya yığması başçılıq edir. Mundialın son qalibi Portuqaliya 2-ci, İspaniya isə 3-cü yerdədir.

Azərbaycan millisinin AÇ-2026-nın qrup mərhələsindəki rəqiblərindən Xorvatiya 16-cı, İsveç 83-cü, Yunanıstan isə 109-cu sıradadır.

# Erməni idmançılar Türkiyədən əliboş qayıtdı

***Ermənistanın kişilərdən ibarət oxatma komandası Türkiyənin Antalya şəhərində keçirilən Paris Olimpiya Oyunlarının sonuncu reytinq turnirində iştirak ediblər.***



"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Məlumata görə, erməni idmançıların heç biri olimpiya oyunlarına vəsiqə qazana bilməyib. Ermənistan Milli Olimpiya Komitəsinin informasiya agentliyi bildirib ki, erməni üçlüyü komanda yarışında 37-ci yeri tutub. Fərdi yarışda Hamlet Poqosyan 33-cü, Vasil Şahnazaryan və Andrey Hovhannisyan 57-ci yeri tutublar.

Qeyd edək ki, frərdi yarışda ilk səkkiz, komanda yarışında ilk beş yeri tutan komanda Paris Oyunlarına vəsiqə qazanıb.

***Ağarza Elçinoğlu***

# "Almaniyaya uduzmaq qəbahət deyil"

***"Bizim oyun şanslarımız olsa da, onların dünyasəviyyəli futbolçuları var".***

Bu sözləri Macarıstan millisinin baş məşqçisi Marko Rossi Almaniya ilə keçirilən AVRO-2024-ün qrup mərhələsinin II turunun oyunundan sonra deyib. 59 yaşlı mütəxəssis oyun ərzində bir çox səhvlərə yol verdiklərini bildirib: "Futbol səhvsiz olmur, biz də Almaniya ilə matçda bunu etdik. Almaniya kimi yığma komandalar çox güclü oyun sərgiləyirlər. Belə yığmalara uduzmaq qəbahət sayılmamalıdır. Onların güclü və səviyyəli futbolçuları var. Bizim də şanslarımız oldu, lakin yararlana bilmədik. Almaniya bu turnirin ən böyük favoritidir".

Qeyd edək ki, A qrupunun matçında Macarıstan Almaniya yığmasına 0:2 hesabı ilə məğlub olub.




# Qadın güləşçimiz Kazanda qızıl medal qazandı

***Azərbaycanın qadın güləşçiləri Rusiyanın Kazan şəhərində keçirilən BRICS Oyunlarında uğurlu çıxış ediblər.***



Azərbaycan Güləş Federasiyasından "Unikal"a verilən məlumata görə, bu gün qadın güləşi üzrə yarışın son günü olub. Oyunlara məşqçi Solmaz Adilovanın rəhbərliyi altında 4 idmançı ilə qatılan komandamızın 2 üzvü fəxri kürsüyə qalxıb. Elnurə Məmmədova (53 kiloqram) qızıl, Gültəkin Şirinova (55 kiloqram) isə bürünc medal qazanıb.

Qeyd edək ki, sabah yunan-Roma güləşi üzrə medalçılar müəyyənləşəcək.

# Konfrans Liqası: "Sabah" və "Sumqayıt"ın rəqibləri müəyyənləşdi

***UEFA Konfrans Liqasında II təsnifat mərhələsinin püşkü atılıb.***

"Unikal" xəbər verir ki, mərasimdə Azərbaycan təmsilçiləri "Sumqayıt" və "Sabah"ın da rəqibləri müəyyənləşib. "Gənclik şəhəri" təmsilçisi bu mərhələdə Macarıstanın "Fehervar" komandası ilə qarşılaşacaq.

Bakı klubu isə İsrail təmsilçisi "Makkabi" (Hayfa) ilə üz-üzə gələcək. Samir Abasovun baş məşqçisi olduğu kollektiv ilk oyunu evdə, Krnoslav Rendulіçin komandası isə səfərdə keçirəcək. Qeyd edək ki, II təsnifat mərhələsinin görüşləri iyulun 25-də və avqustun 1-də oynanılacaq.




# Murat Yakın: "Rəqibi depressiyaya saldıq"

***İsveçrə millisinin baş məşqçisi Murat Yakın Avro-2024-ün 2-ci turu çərçivəsində Şotlandiya ilə heç-heçə etdikləri (1:1) oyun haqda danışıb.***




QOL.az xəbər verir ki, mütəxəssis rəqibin daha güclü çıxış edəcəyini gözlədiklərini deyib:

"Bizim belə oynayacağımız Şotlandiyanın ağlına gəlməli idi. Depressiyaya düşdülər, qürurları zədələndi. Biz təzyiq gözləyirdik və güman edirdik ki, meydanın mərkəzindəki boşluğu bağlayacaqlar. Qarşılaşmada qalib gələ bilərdik, lakin şotlandlar da yaxşı şans yaratdılar".

Xatırladaq ki, Avro-2024-də Şotlandiya və İsveçrə millіləri Almaniya və Macarıstanla birlikdə A qrupunda mübarizə aparırlar. Artıq bu qrupda Almaniya millisi pley-offa vəsiqəni təmin edib.

# AFFA "Araz-Naxçıvan"ın sabiq məşqçisini cəzalandırdı




***Ötən mövsüm "Araz-Naxçıvan" klubunda məşqçi işləmiş Xaqani Məmmədov cəzalandırılıb.***

"Unikal" Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, bununla bağlı qərar AFFA İntizam Komitəsinin son iclasında qəbul edilib.

"Oyunların toxunulmazlığı" Komissiyasının təlimatını pozduğuna görə mütəxəssisə 2 il şərti cəza verilib.

Sınaq müddəti 24 ay təyin olunub.

# "Zirə"nin qapıçısı püşkü dəyərləndirdi

***"Zirə"nin qapıçısı Aydın Bayramov UEFA Avropa Liqasının püşkünü dəyərləndirib.***



QOL.az saytına açıqlamasında 28 yaşlı qolkiper Moldova təmsilçisi "Şerif"in güclü rəqib olduğunu bildirib: "Şerif" Avropada çox təcrübəli kollektivdir. Bu komandanın həm Çempionlar Liqasının qrup mərhələsindəki çıxışını, həm də daha əvvəl "Qarabağ"a qarşı oyunlarını izləmişik. Yaxşı rəqibə qarşı oynayacağımızın fərqindəyik. Bununla belə, mərhələ adlamaq üçün əlimizdən gələni edəcəyik".

"Şerif"i mübarizədən kənarlaşdıracağı təqdirdə "Zirə" Avroliqanın II təsnifat mərhələsində "Elfsborq" (İsveç) - "Pafos" (Kipr) cütünün qalibi ilə qarşılaşacaq. Lakin A.Bayramov hazırda bu barədə düşünmədiklərini söyləyib: "İnşallah hər oyuna maksimum dərəcədə yaxşı hazırlaşıb, bacardığımız qədər irəli getmək istəyirik. Lakin hazırda bütün diqqətimiz yalnız "Şerif"lə oyunlara yönəlib".

# U-17 millisi Albaniyaya uduzdu



***Albaniyanın Dürres şəhərində təlim-məşq toplanışında olan 17 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası ikinci yoldaşlıq görüşünü keçirib.***

U-17 hazırlıq çərçivəsində növbəti dəfə meydan sahiblərinin müvafiq yaş qrupundan ibarət komandası ilə qarşılaşıb. "Eqnatia Arena"da təşkil olunan matç Albaniya yığmasının 4:1 hesablı qələbəsi ilə başa çatıb. Millimizin heyətində qolu 70-ci dəqiqədə Əli İbrahim vurub.

Qeyd edək ki, bu komandalar arasında iyunun 17-də keçirilən ilk yoldaşlıq görüşü 1:1 hesablı heç-heçə ilə yekunlaşıb.